'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

www.kaspi.az

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

Qiyməti - 40 qəpik

23 NOYABR ŞƏNBƏ 2024 № 45 (4196)




## QLOBAL CƏNUB QHT PLATFORMASI YARADILIR

**COP29 çərçivəsində Azərbaycan Milli QHT Forumunun təşəbbüsü ilə Qoşulmama Hərəkatı ölkələrinin QHT-lərinin Cənub-Cənub əməkdaşlığı üzrə beynəlxalq konfransı keçirilib.**

# COP-LARIN ƏN YADDAQALANI

COP29 yalnız yüksək peşəkarlıqla təşkil olunması ilə yadda qalmadı. Bu tədbir, həm də bir çoxlarının səsi oldu. Dünyanın müxtəlif xalqlarının, dövlətlərinin üzləşdikləri problemlər, maneələr COP29 tribunasından bütün dünyaya bəyan edildi.

### İNAM VƏ ETİMADIN GÖSTƏRİCİSİ

**COP29-un ölkəmizdə keçirilməsi ilə bağlı qərarın yekdil formada dəstəklənməsi beynəlxalq aləmin Azərbaycana olan inam və etimadının göstəricisi idi. Qısa müddət ərzində həyata keçirilən hazırlıq prosesi zamanı Azərbaycanın uğurlarına kölgə salmağa çalışanlar tapılsa da, açılış mərasimindən tutmuş müxtəlif müzakirə panellərinə qədər təşkil olunan tədbirlər bu təşəbbüslərin heç bir nəticə vermədiyinin əyani sübutu idi.**

### AZƏRBAYCANIN DİPLOMATİK UĞURU

**80-dən artıq dövlət və hökumət başçısının, ümumilikdə 70 mindən çox insanın qatıldığı COP29 nəticələrindən asılı olmayaraq iqlim dəyişmələrinə qarşı mübarizə ilə bağlı təşkil olunan müzakirələrin tarixinə ən yaddaqalan və səmərəli tədbir kimi düşüb. Təbii ki, bu uğurların əsas meyarı ev sahibi kimi Azərbaycanın ortaya qoyduğu əzmkarlıq, diplomatik fəaliyyətdir.**

SƏHİFƏ 3-də



## TƏCRÜBƏ VƏ YENİ İMKANLAR




### TƏCRÜBƏMİZ NÜMUNƏDİR

**COP29-un uzunmüddətli təsirlərinə dair müzakirələrdə ekspertlər və iştirakçılar Azərbaycan təcrübəsinin gələcək beynəlxalq tədbirlər üçün nümunə ola biləcəyini qeyd ediblər. Tədbirin yekununda iştirakçılar COP29-un nəticələrinin ölkə və dünya üçün strateji əhəmiyyətini vurğulayıb və gələcək illər üçün əməkdaşlıq perspektivləri barədə təkliflər səsləndiriblər.**

SƏHİFƏ 2-də

UĞUR

## "İndiyə qədər ən böyük uğurum NASA ilə bağlıdır"



Bəhruz Əhədov: "Asiya ölkələrində təhsil almaq müəyyən dərəcədə stresli prosesdir. Orada tələblər yüksəkdir. Bizim ali təhsil sistemimizdə doktorantura səviyyəsində gözlənilən nəticələr, Çində ali təhsilin bakalavr səviyyəsindəki tədqiqatlarda tələb olunurdu".

SƏHİFƏ 8-9-DA

PROBLEM

## Turizm şirkətlərinin qanunsuz qazanc yeri




Şengen vizası almaq məqsədilə səfirliklərdə görüş götürmək üçün yerlər açıq bazarla satılır. Turizm şirkətlərinə müraciət etdikdə yalnız VİP yerlərin mövcud olduğunu və bunun üçün qiymətin 200-300 AZN aralığında dəyişdiyini bildirirlər.

SƏHİFƏ 13-DƏ



## Prezident israilli naziri qəbul edib

Prezident İlham Əliyev noyabrın 22-də İsrail Dövlətinin nəqliyyat və yol təhlükəsizliyi naziri Miri Reqevi qəbul edib.

Miri Reqev İsrail Dövlətinin Prezidenti İsxak Hersoqun salamlarını dövlətimizin başçısına çatdırıb.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirib, onun da salamlarını İsrail Dövlətinin başçısına çatdırmağı xahiş edib.

Görüşdə Bakıda keçirilən COP29-un əhəmiyyəti vurğulanıb, iqlim dəyişmələri ilə bağlı məsələlərin müzakirəsi baxımından bu tədbirin önəmli olduğu qeyd edilib.

Miri Reqev COP29-un yüksək səviyyədə təşkilinə görə təbriklərini çatdırıb.

Söhbət zamanı ikitərəfli münasibətlərə dair fikir mübadiləsi aparılıb.



## “Qalıq yanacaqlardan imtina son dərəcə vacibdir”

“Qalıq yanacaqlardan imtina məsələsi son dərəcə vacibdir”. Bunu “Report”a açıqlamasında Danimarkanın iqlim, energetika və kommunal xidmətlər naziri Lars Aaqaard deyib. “Ona görə də, bununla bağlı neqativ heç bir şeylə razılaşmırıq. Hazırda gərgin müzakirələr gedir. Ümid edirəm ki, uyğun bir yol tapılacaq. Bununla belə, həm Danimarka, həm də Avropa İttifaqı bu məsələdə çox aydın mövqe nümayiş etdirirlər”, - deyə o bildirib.

Danimarkalı nazir qeyd edib ki, ABŞ-nin qalıq yanacaqlarla bağlı hər hansı bir müraciəti qəbul etməməsi ilə bağlı bəyanatı onlar üçün qəbuledilməzdir: “Biz ötən il razılaşdığımız məsələləri yenidən müzakirə etməyəcəyik. COP prosesi iqlim dəyişikliyini dayandırmağa yönəlib. 1,5 dərəcə hədəfinə çatmaq üçün əlimizdən gələni etməliyik və bu, qalıq yanacaqların mərhələli şəkildə dayandırılmasını tələb edir. Təbii ki, kənd təsərrüfatı sahəsi kimi başqa məsələlər də var”.




# AZƏRBAYCANDA VƏ DÜNYADA COP29 İRSİ

Tədbirdə Azərbaycanın iqlim dəyişikliklərinə qarşı mübarizə sahəsindəki səylər və COP29-un ölkəyə gətirdiyi iqtisadi, sosial və ekoloji faydalar vurğulanıb. Bildirilib ki, bu konfrans Azərbaycanın qlobal iqlim gündəliyindəki mövqeyini gücləndirib.

Bakıda təşkil olunan COP29 çərçivəsində bir çox mühüm mövzulara həsr olunmuş panel iclaslar, müzakirələr təşkil olunur. Noyabrın 22-də “Gələcəyin qurulması: Azərbaycanda və dünyada keçirilən COP29-un irsi” mövzusunda panel müzakirə keçirilib. Tədbirdə Azərbaycanın COP29-a ev sahibliyi etməsinin dayanıqlı inkişaf üzərindəki uzunmüddətli təsirləri ilə bağlı müzakirələr aparılıb.

### QLOBAL İQLİM GÜNDƏLİYİNDƏKİ MÖVQEYİMİZ GÜCLƏNİR

Tədbir Azərbaycanda Amerika Ticarət Palatasının Dayanıqlı İnkişaf və Korporativ Təsir Komitəsinin sədr müavini Ceyhun Atayevin moderatorluğu ilə baş tutub. Panel müzakirəsində çıxış edənlər - Azərbaycan Sahibkarlar Konfederasiyasının baş icraçı direktoru və COP29 Təşkilat Komitəsinin üzvü Natəvan Məmmədova, Azərbaycan Tekstil Assosiasiyasının İcraçı direktoru Fəridə Axundova, “GLOBE International” şirkətinin baş direktoru Malini Mehra, BMTİP-nin Dayanıqlı Maliyyə Mərkəzinin direktoru Markos Neto Azərbaycanın iqlim dəyişikliklərinə qarşı mübarizə sahəsindəki səylərini və COP29-un ölkəyə gətirdiyi iqtisadi, sosial və ekoloji faydaları vurğulayıblar. Bildirilib ki, bu konfrans Azərbaycanın qlobal iqlim gündəliyindəki mövqeyini gücləndirib və Dayanıqlı İnkişaf Məqsədlərinə çatmaq üçün yeni imkanlar yaradıb.



Malini Mehra

## TƏCRÜBƏMİZ NÜMUNƏDİR

Müzakirələrdə COP29 çərçivəsində həyata keçirilən tədbirlərin yerli və beynəlxalq əhəmiyyətindən danışılıb. İştirakçılar qeyd ediblər ki, Azərbaycan bu tədbirlər vasitəsilə davamlı enerji həlləri, yaşıl texnologiyalar və ekoloji maarifləndirmə təşəbbüslərini həyata keçirir.

Eyni zamanda, tədbirdə Azərbaycanın dayanıqlı şəhər inkişafı, bərpaolunan enerji layihələri və ekoloji turizmin genişləndirilməsi sahəsindəki nailiyyətləri təqdim olunub. COP29-un uzunmüddətli təsirlərinə dair müzakirələrdə ekspertlər və iştirakçılar Azərbaycan təcrübəsinin gələcək beynəlxalq tədbirlər üçün nümunə ola biləcəyini qeyd ediblər.

### DÖVLƏTLƏRİN AYIRDIQLARI VƏSAİTLƏRƏ EHTİYAC VAR

COP29 çərçivəsində təşkil edilmiş digər tədbirdə çıxış edən BMT-nin proqram məsləhətçisi Tetet Lauron bildirib ki, iqlim dəyişikliyi ilə mübarizədə ayrılan vəsaitlər lazımi yerə xərclənilmir. Onun sözlərinə görə, artıq iqlim dəyişikliyi ilə mübarizə aparan icmaları dəstəkləmək üçün dövlət vəsaitlərinə ehtiyac var.

## İLK DƏFƏ QLOBAL CƏNUB QHT PLATFORMASI YARADILIR

COP29 həm də dünyanın müxtəlif ölkələrindən qatılan qeyri-hökumət təşkilatlarının fəallığı ilə seçilir. Azərbaycan bu istiqamətdə də onların koordinasiyalı fəaliyyətinin təşkili üçün mühüm təşəbbüslər irəli sürür. Qeyd edək ki, COP29 çərçivəsində Azərbaycan Milli QHT Forumunun təşəbbüsü ilə Qoşulmama Hərəkatı ölkələrinin QHT-lərinin Cənub-Cənub əməkdaşlığı üzrə beynəlxalq konfransı keçirilib. Xarici QHT-lər Qlobal Cənubun aparıcı ölkələrindən biri olan Azərbaycan dövlətini COP29-u uğurla təşkil etdiyinə görə təbrik ediblər.

Beynəlxalq konfransın yekununda Qoşulmama Hərəkatı ölkələrini təmsil edən QHT-lər Cənub-Cənub əməkdaşlığı vasitəsilə iqlim fəaliyyətinin inkişafında QHT-lərin roluna dair birgə bəyanat mətnini razılaşdırıb. Bəyanatda ən yaxşı təcrübələri bölüşmək, dayanıqlı inkişafa təkan vermək üçün iqlim fəaliyyəti üzrə əməkdaşlıq şəbəkəsi kimi Azərbaycan Milli QHT Forumunun təşəbbüsünə dəstək olaraq, Qlobal Cənub QHT Platformasının yaradılmasının vaxtının çatdığı bildirilir.

### COP29 SƏDRLİYİ YEKUN BƏYANAT YAYIB

Azərbaycanın COP29 Sədrliyi Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının yekunlarına dair bəyanat yayıb.

Bildirilib ki, Yeni Kollektiv Kəmiyyət Məqsədi ilə bağlı qərarda Tərəflərin hamısına 2035-ci ilə qədər bütün dövlət və özəl mənbələrdən iqlimlə bağlı fəaliyyət üçün inkişaf etməkdə olan ölkələrə maliyyələşdirməni ildə ən azı 1,3 trilyon ABŞ dollarına çatdırmaq üçün birlikdə işləməyə dəvət yer alıb.

Bu qərar özündə, eyni zamanda, inkişaf etmiş ölkələrin inkişaf etməkdə olan ölkələrə iqlim fəaliyyəti üçün ildə 100 milyard ABŞ dolları məbləğində vəsaitin birgə səfərbər edilməsi məqsədinin 2035-ci ilədək 250 milyard ABŞ dollarına çatdırılması məqsədini ehtiva edir.

# COP-LARIN ƏN YADDAQALANI




## "COP29 FANTASTİKDİR"



**Foto:** Arif Quluzadə-Global Photostock

COP29 yalnız yüksək peşəkarlıqla təşkil olunması ilə yadda qalmadı. Bu tədbir, həm də bir çoxlarının səsi oldu. Dünyanın müxtəlif xalqlarının, dövlətlərinin üzləşdikləri problemlər, maneələr COP29 tribunasından bütün dünyaya bəyan edildi.



**AZAD ƏLİYEV**
azad.eliyev@kaspi.az

Azərbaycan COP29 kimi dünyanın mühüm tədbirlərindən birinə ev sahibliyi etməklə növbəti dəfə adını beynəlxalq aləmdə yaxşı mənada hallandırmağı bacardı. Yüksək peşəkarlıq, möhtəşəm təşkilatçılıq, innovativ texnologiyaların tətbiqi ilə yaradılan şərait. Bütün bunlar hər kəsi düşündürən iqlim dəyişmələrinə qarşı mübarizə kimi ümumbəşəri problemdən çıxış yollarının müzakirə olunduğu COP29-un yüksək səviyyədə təşkili və fəaliyyəti baxımından böyük təsir gücünə malik vacib amillərdir. Bakı bütün dünya qarşısında bu sınaqdan da uğurla çıxmağı bacardı.

### İNAM VƏ ETİMADIN GÖSTƏRİCİSİ

COP29-un ölkəmizdə keçirilməsi ilə bağlı qərar verilərkən dünyanın yekdil formada bu təşəbbüsü dəstəkləməsi əslində beynəlxalq aləmin Azərbaycana olan inam və etimadının göstəricisi idi. Səsvermədə iştirak edənlərin hər biri Bakının bu məsuliyyətli və ağır prosesi uğurla reallaşdıra biləcəyinə şübhə etmirdi. Təbii ki, qısa müddət ərzində həyata keçirilən hazırlıq prosesi zamanı Azərbaycanın uğurlarına kölgə salmağa çalışanlar tapılsa da, ümumilikdə COP29-un açılış mərasimindən tutmuş müxtəlif müzakirə panellərinə qədər təşkil olunan tədbirlər bu təşəbbüslərin heç bir nəticə vermədiyinin əyani sübutu idi.

### ƏN YADDAQALAN VƏ SƏMƏRƏLİ COP

80-dən artıq dövlət və hökumət başçısının, ümumilikdə 70 mindən çox insanın qatıldığı COP29 nəticələrindən asılı olmayaraq, iqlim dəyişmələrinə qarşı mübarizə ilə bağlı təşkil olunan müzakirələrin tarixinə ən yaddaqalan və səmərəli tədbir kimi düşüb. Təbii ki, bu uğurların əsas meyarı ev sahibi kimi Azərbaycanın ortaya qoyduğu əzmkarlıq, diplomatik fəaliyyətdir. COP29 çərçivəsində iqlim dəyişmələrinə qarşı mübarizənin maliyyələşdirilməsi çərçivəsində aparılan müzakirələrin 300-500 milyard dollarlıq bir hədəf ətrafında getməsi də tədbirin əhəmiyyəti və nəticəyönümlülüyə hesablanmasının göstəricisidir.

## COP29-DA HƏR KƏSİN SƏSİ EŞİDİLDİ

COP29 tək yüksək peşəkarlıqla təşkil olunması ilə yadda qalmadı. Bu tədbir, həm də bir çoxlarının səsi oldu. Dünyanın müxtəlif xalqlarının, dövlətlərinin üzləşdikləri problemlər, maneələr COP29 tribunasından bütün dünyaya bəyan edildi. Aparıcı media orqanlarının iştirakı ilə onların səsi dünyanın səsi olaraq eşidildi. Təbii ki, bu məsələdə də əsas təşəbbüskar rəsmi Bakı və Azərbaycanın ali rəhbərliyi oldu. Ortaya qoyulan siyasi iradə, qətiyyət müstəmləkə zülmündən əziyyət çəkən, qlobal istiləşmənin ən çox zərər verdiyi kiçik xalqlar və dövlətlərin eşidilməyən səsləri Azərbaycan Prezidentinin bütün dünyada böyük əks-səda yaradan çıxışlarında əksini tapdı.



### MÖHTƏŞƏM TRİBUNA

COP29 həm də Azərbaycan həqiqətlərinin bir daha bütün dünyaya bəyan edilməsi üçün möhtəşəm tribuna rolunu oynadı. Təşkil olunan bütün müzakirələr Azərbaycanın iqlim dəyişmələrinə qarşı mübarizə ilə bağlı təşəbbüsləri, yaşıl enerji, yaşıl iqtisadiyyata keçid üçün atdığı addımlar, sahib olduğu imkanların ən yüksək təqdimatı ilə yadda qaldı. Azərbaycan həm ənənəvi, həm də bərpaolunan enerji imkanlarına malik bir ölkə olaraq onların uğurlu sintezinin təşkili təcrübəsini dünyaya bir nümunə kimi göstərdi. Ölkəmizin dünyanın enerji təhlükəsizliyindəki önəmli rolu, geosiyasi və coğrafi mövqeyinə görə beynəlxalq əhəmiyyətli tranzit nəqliyyat dəhlizlərinin əsas iştirakçısı olması xüsusi vurğulandı. Hazırda bütün dünyanın diqqət etdiyi bu iki məqamla bağlı yaşıl texnologiyaların tətbiqi sahəsində Azərbaycanın irəli sürdüyü ideya və təşəbbüslərə güclü siyasi dəstək ifadə edildi. Bununla da COP29 həm də Azərbaycan qarşısında açılan yeni imkanlar pəncərəsi kimi xüsusi önəm daşıyır.

### HƏM TƏCRÜBƏ, HƏM DƏ YENİ İMKANLAR

Azərbaycan da qlobal dünyanın bir parçası olaraq iqlim dəyişmələrinin ciddi təsirinə məruz qalan ölkələrdəndir. Bu mənada COP29 həm də Azərbaycan üçün bu qlobal kataklizmlərin ölkəmizə təsirlərin minimuma endirilməsi, üzləşdiyi problemlərdən çıxış yollarının tapılması istiqamətində həm mühüm təcrübə, həm də yeni imkanlar demək idi.



Uzodinma Adirieje



David Lordkipanidze

Azərbaycanın COP29-u yüksək səviyyədə təşkil etməsi və nəticəyönümlü olması istiqamətində səyləri tədbir iştirakçıları, müxtəlif dövlətlərin rəsmiləri tərəfindən də bəyan edilir, alqışlanır.

Məsələn, Afrikanın Səhiyyə Təşkilatları Assosiasiyasının rəhbəri, İqlim Dəyişikliyi və Tərəflər Konfransı üzrə Qlobal Vətəndaş Cəmiyyəti Konsorsiumunun sədri Uzodinma Adirieje bildirib ki, Azərbaycanda təşkil olunan COP29 əvvəlki konfranslarla müqayisədə istisna təşkil edir. "Burada gördüklərim və eşitdiklərim məni heyran etdi. Azərbaycan hökumətini, COP29-un təşkilatçılarını və media nümayəndələrini təbrik edirəm. Biz indi bir daha gördük ki, bu ilin fevralında təşkilatımız Azərbaycanda bu konfransın keçirilməsinin dəstəklənməsi barədə doğru bəyanatlar verib. Azərbaycan dünya üçün nümunəvi işlər görür", - Uzodinma Adirieje bildirib.

Gürcüstan Milli Muzeyinin rəhbəri, Gürcüstan Elmlər Akademiyasının müxbir üzvü, professor David Lordkipanidzenin sözlərinə görə, COP29 fantastikdir. "Böyük miqyas, əla təşkilatçılıq, hər şey təkcə texniki cəhətdən yaxşı deyil, həm də böyük zövqlə həyata keçirilib. Burada Azərbaycanın mədəni irsini görmək çox xoşdur. Düşünürəm ki, bu uğur Azərbaycan və Bakının böyük xəritədə olması üçün növbəti addımdır", - o deyib.

Bütün dünya bir daha Azərbaycanın hansı imkanlara, hansı iqtisadi gücə, siyasi sabitliyə və inkişafa malik olduğunu bir daha əyani şəkildə izləmiş oldu. COP29 bu günlər ərzində ölkəmizin adını bütün dünyaya duyurdu. Artıq qarşıda yeni hədəflər var. Həm dünya, həm də ölkəmiz üçün mühüm əhəmiyyət daşıyan bu hədəflərə nail olmaq isə həmrəylik və ahəngdarlıq tələb edir. Azərbaycan cəmiyyətində olduğu kimi...

ÜÇ ƏSRİN QƏZETİ Kaspi COP29 Baku Azerbaijan CLIMATE CHANGE CONFERENCE


ERMƏNİPƏRƏST KONQRESMEN FRANK PELONİNİN BAKIDAN RÜSVAYÇI QAÇIŞI

# ERMƏNİ LOBBİSİNİN ARQUMENT BÖHRANI

**Azərbaycan artıq o dövlət deyil ki, başqa ölkənin qanunverici orqanında ona qarşı qəbul edilmiş hər hansı qərəzli sənədin təsirinə məruz qala. Peloni kimilərinin çıxışları, təşəbbüsləri erməni lobbisinin özünün təşkil edib, özünün təskinlik tapdığı mənasız cəhdlərdir.**






RÜSTƏM QARAXANLI

ABŞ konqresmeni Frank Peloninin Bakıdan qaçıb ölkəsində tələsik şikayət konfransı keçirməsi pullu sifarişçilərinin mütəmadi qaydada əl atdıqları davranışı xatırladır. ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə Azərbaycan və Ermənistan liderlərinin danışıqlarından birində diplomatik dalana dirəndiyini görən eks-prezident Robert Köçaryan bəhanə ilə müzakirə otağını tərk edib bir qədər sonra qayıtmışdı ki, müdafiə naziri Serj Sarqsyanın qayınatası dünyasını dəyişdiyindən təcili Ermənistana dönməlidir. Bu yolla da danışıqlardan qaçmışdı. Gülünc bəhanələr erməni diplomatiyası üçün tez-tez “saman çöpü” rolunu oynayır. Görünür, konqresmenin ermənilərlə ünsiyyətdə “rəngi dəyişməsə də, xasiyyəti dəyişikliyə uğrayıb”...

### BMT-NİN YOL VERDİYİ QÜSUR

Qatı ermənipərəst konqresmenin Bakıda keçirilən COP29-da peyda olması əsas təşkilatçı BMT xətti ilə reallaşmışdı. Peloni uzun illərdir ki, Azərbaycana qarşı qərəzli kampaniyanın aparıcı üzvlərindən biri olub. ABŞ-nin qanunverici orqanında Azərbaycanın gözdən salınmasına hesablanmış və ictimai rəyə təsirsiz ötüşməmiş aksiyaların, qəbul edilmiş qətnamələrin mərkəzi fiqurlarından olan F.Peloninin Bakıya gəlişi istənilən sıravi azərbaycanlıda hiddət doğurmaya bilməzdi. Azərbaycan torpaqlarının işğalı və 30 il ərzində viran edilməsi, yüzminlərlə vətəndaşımızın onilliklər boyu vətən həsrəti ilə yaşaması, minlərlə insanımızın qətl edilməsi tək Ermənistanın əməli deyil, kompleks siyasi cinayətlərin nəticəsidir. Şübhə yoxdur ki, Peloni kimi konqresmen və senatorların qərəzli fəaliyyəti nəticəsində Vaşinqtonda formalaşmış Azərbaycanafob ab-hava da bu prosesin ayrılmaz tərkib hissəsidir.

Son bir ildə Bakıda keçirilən COP29-a qarşı aparılan ləkələmə kampaniyasının mühüm istiqamətlərindən biri də ABŞ-dakı erməni lobbisinin bu yöndəki fəaliyyəti olub. Qərbdəki erməni diasporunun böyük ümidlərlə başlatdığı bu qarayaxma kampaniyasının əsas icraçılarından da biri məhz Pelonidir. Onun Bakıdan qaçdıqdan sonra da əsassız, bu qədər müddətdə nəticə verməyən “arqument”ləri təkrarlaması bir il ərzində yürüdülən çirkin kampaniyanın iflasının göstəricisidir.

## SOYQIRIMI TÖRƏDƏN SEPARATÇI CANİLƏRİN “HÜQUQLARI”

Onillər ərzində Azərbaycan ərazisindəki separatçılığı dəstəkləmiş ermənipərəst konqresmen və senatorlar bütün siyasi və diplomatik etiketləri pozaraq bölücü xuntanın həbsdə olan liderlərini “əsir” adlandırırlar. Bu azmış kimi, yüzlərlə məhbusu Quantanamo həbsxanasında dözülməz şəraitdə saxlayan, işgəncələrə məruz qoyan bir dövlətin qanunvericiləri bizdən şəhərlərimizi raket atəşinə tutmaq əmrini verən və bunu inkar etməyən, Xocalı soyqırımını törədən hərbi caniləri azadlığa buraxmağımızı istəyirlər. Şübhə yoxdur ki, bunun mümkünsüz olduğunu dərk etməmiş deyillər, ancaq necə deyərlər, əsas müharibə deyil, manevrlərdir. Qısır direktivlər səslənməkdə davam edir, əvəzində isə erməni diasporunun pulları gəlir.

Peloni kimilərinin oynadıqları rolun Azərbaycanı dünyada gözdən salmağa, beynəlxalq aləmdəki reputasiyasını korlamağa yönəlmiş cəhd olmaqla yanaşı, daha bir hədəfi var. Söhbət Ermənistanla Azərbaycan arasında gedən sülh danışıqlarını pozmaq, yaxud ən azı uzatmaqdan gedir. Paşinyanın plastilin hakimiyyətinə Qərbin təsir imkanları yetərincədir. İstənilən yüngülvarı vəd İrəvandakıların şirniklənmələrinə bəs edir və danışıqların gedişində növbəti pauza yaranır. Kollektiv Qərbin başda ABŞ-nin demokratlar iqtidarı və Makron Fransası olmaqla əsas niyyəti tərəflər arasında yekun sülhə nail olunmasının qarşısını almaqdır. Sülh prosesinin sabotajı Qərbin bölgədəki mövcudluğunun əsas faktorudur. Bu prosesin bir bəndi də ermənipərəst qanunvericilərin yerinə yetirdikləri pozucu missiyadır.

Onların COP avantürası tək qorxaq Peloni ilə yekunlaşmır. Bakıya gələn senatorlar Ed Marki və Şeldon Uaythausun Azərbaycan paytaxtında səsləndirdikləri təxribatçı bəyanatların da məqsədi eynidir.

### MENENDESİN DAVAMÇILARI

Pul müqabilində aparılan təbliğat əcnəbilərdən təşkil edilmiş muzdlu ordu kimidir: çətinliyə düşən kimi çıxış yolunu döyüş meydanını atıb qaçmaqda görür. Peloninin Bakıdan tələm-tələsik qaçması erməni diasporunun ödənişli kampaniyasının dişsizliyinin əlamətidir. Azərbaycan artıq o dövlət deyil ki, başqa ölkənin qanunverici orqanında ona qarşı qəbul edilmiş hər hansı qərəzli sənədin təsirinə məruz qala. Peloni kimilərinin çıxışları, təşəbbüsləri və bəyanatları bu baxımdan, erməni lobbisinin özünün təşkil edib, özünün təskinlik tapdığı mənasız cəhdlərdir. Bu ləkələmə kampaniyasının nəticəsiz olması ilə yanaşı, həm də məzmun dəyişikliyinə uğraması Azərbaycanın ciddi ideoloji qələbəsi sayılmalıdır. İndiyədək hər vəchlə ərazimizdəki qanunsuz qurumu “dövlət” kimi təqdim edən konqresmen və senatorlar indi bu xuntanın həbsdə olan liderlərinin “azadlığa çıxmaları” uğrunda pul qazanırlar.

Əziyyət özlərinin, pul ermənilərin... Ancaq arada bir keçmiş həmkarları Robert Menendesi də unutmasınlar. Nadin Arslanyanın həyat yoldaşı, rüşvətə və milli maraqları satdığına görə konqresdən qovulmuş Menendesi...




Robert Menendes

# SUSUZ QALA BİLƏRİK




**COP29 çərçivəsində “İqlim, təbiət və insanlar üçün su həyat xəttinin təbliği” adlı tədbirdə İqlim Fəaliyyəti naminə Su üzrə Bakı Dialoquna rəsmi start verilib. Ekologiya və təbii sərvətlər naziri, COP29-un Prezidenti Muxtar Babayev və BMT-nin Ətraf Mühit Proqramının (UNEP) icraçı direktoru İnger Andersen İqlim fəaliyyəti üçün su üzrə Bakı Dialoqu təşəbbüsünə dair niyyət protokolunu imzalayıblar.**



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Qlobal iqlim dəyişmələrinin təsiri nəticəsində su qıtlığı problemi Bakıda keçirilən COP29-un da əsas müzakirə mövzularından biridir. Azərbaycan diqqəti şirin su ehtiyatlarının azalmasına yönəltmək, bu istiqamətdə səyləri birləşdirmək üçün bütün ölkələrini ilk Su Bəyannaməsinə qoşulmağa çağırıb. Bu məqsədlə COP29 çərçivəsində “İqlim, təbiət və insanlar üçün su həyat xəttinin təbliği” adlı tədbirdə İqlim Fəaliyyəti naminə Su üzrə Bakı Dialoquna rəsmi start verilib. Tədbir çərçivəsində ekologiya və təbii sərvətlər naziri, COP29-un Prezidenti Muxtar Babayev və BMT-nin Ətraf Mühit Proqramının (UNEP) icraçı direktoru İnger Andersen İqlim fəaliyyəti üçün su üzrə Bakı Dialoqu təşəbbüsünə dair niyyət protokolunu imzalayıblar. Qeyd edilib ki, niyyət protokolu təşəbbüsün gələcək fəaliyyətlərinin icrasına dəstəyi nəzərdə tutub.

Qeyd edək ki, Azərbaycanda il ərzində suvarılan torpaqlar 1,02 milyon, suvarılabilən ərazilər isə 1,54 milyon hektardır. Bu rəqəmlər “Su təhlükəsizliyi problemlərinin həlli üçün səmərəli su sektoru institutlarına və proqramlarına keçid” adlı hesabatda əksini tapıb. Azərbaycanda suvarma səmərəliliyinin ən yüksək göstəriciləri Mil-Muğan, Naxçıvan və Şirvan-Salyan iqtisadi rayonlarında qeydə alınıb. Dövlət Statistika Komitəsinin məlumatına görə, eyni dövrdə qəbul edilmiş suyun ümumi həcmi orta hesabla 7 milyard 30 milyon kubmetr təşkil edib ki, bu da potensial olaraq ölkə səviyyəsində təxminən 67 faiz ümumi su itkisini göstərir.

Bəs bu problemlərin həlli üçün hansı işlərin görülməsinə ehtiyac var? Qurumlar bu barədə nə düşünür?

### VAHİD İDARƏETMƏNİN VACİBLİYİ

Kənd təsərrüfatı üzrə ekspert Şahin Nəcəfovun sözlərinə görə, Azərbaycanda kənd təsərrüfatı sahəsində ən problemli sahələrindən biri də suvarmadır: “Ən böyük problem isə vahid idarəçiliyin olmamasıdır”.

Ş.Nəcəfovun fikrincə, əlimizdə olan sahələri hələ tam suvara bilmirik. Lakin hər il əkin sahələri daha da artır. Bu, su çatışmazlığını yaradan əsas səbəblərdəndir: “Mövcud əkin sahələri davamlı suvarılma potensialına sahib deyil. Davamlı suvarılmada əkinçi istədiyi vaxt sahəsini sulamalıdır. Yağışlar bol olanda birtəhər idarə edə bilirlər. Amma quraqlıq olduqda məhsuldarlıq xeyli aşağı düşür. Bununla belə, örüş sahələri əkin sahələri ilə əvəzlənir”.

### SU KANALLARI BETON OLMALIDIR

Ekspert bildirib ki, davamlı suvarılma imkanı olmadıqda növbəli əkin sistemi tətbiq edilməlidir: “Məsələn, fermer eyni anda 10 hektar sahədə taxıl əkir və oradan 15-20 ton taxıl yığır. Növbəli əkində isə beş hektarı əkir, digər sahəni dincə qoyur. Əkdiyi beş hektardan 25 ton taxıl yığır. Meyvə bağları intensiv sulama-damlama sisteminə keçirilir. Buna dövlət tərəfindən dəstək də verilir. Beləliklə, su itkilərinin qarşısı qismən də olsa alınır. Digər damlama-çiləmə təsərrüfatlarına da dəstək artırılmalıdır. Kanallar betonlaşmalıdır. Çünki torpaq kanallar xeyli miqdarda suyun itirilməsinə səbəb olur. Su kanallarının yalnız 20 faizində betonlaşma həyata keçirilib”.






Şahin Nəcəfov

## DAXİLİ ÇAYLARIN BİR ÇOXU QURUYUB

İqtisadçı Pərviz Heydərov isə düşünür ki, hazırda suvarma sahəsində çatışmazlıqlarımız, əsasən mövcud su potensialımızın azalmasından qaynaqlanır: “Məsələn, son illər ərzində iqlim dəyişikliklərinin və uzun sürən quraqlıqların nəticəsində ölkəmizin əsas su arteriyaları olan Kür və Araz çaylarında su kəskin azalıb və daxili çayların bir çoxu isə ümumiyyətlə quruyub. Ona görə də kənd təsərrüfatı bitkilərinin, həmçinin meyvə və tərəvəz əkininin suvarma suyu ilə təminatı çətinləşib”.

P.Heydərovun fikrincə, suvarmadakı qıtlığın qarşısının alınması üçün su ehtiyatlarımız nəzarətə götürülməlidir: “Azərbaycan su ehtiyatlarıyla bağlı yaxın gələcəkdə dünyada ciddi böhranla qarşı-qarşıya qalacaq ölkələrdən biri sayılır. Ölkə üzrə su ehtiyatlarının 2020-2050-ci illərdə 20-25 faiz azalacağı gözlənilir. Odur ki, bu gün işartıları görünən bir sıra real su problemlərimiz yaxın gələcəkdə daha ciddi şəkil alacaq. Mövcud su ehtiyatlarımızdan səmərəsiz istifadə su ilə bağlı bizi gözləyən böhranlı vəziyyəti daha sürətlə yaxınlaşdırır. Odur ki, prioritet məsələ ilk növbədə bu vəziyyəti aradan götürməkdir. Məlumata görə, ölkəmizdə yerüstü su ehtiyatları 30 milyard kubmetr təşkil edir ki, bunun da yalnız 30 faizi daxili ərazimizdə formalaşır, 70 faizi isə qonşu ölkələrin ərazilərindən daxil olur. Yerüstü su ehtiyatlarımızın daxildə formalaşan hissəsi daha çox mühafizə olunmalı və istehlakı dövlət nəzarətinə götürülməlidir”.



Pərviz Heydərov

## MÜTƏMADİ MÜZAKİRƏLƏR APARILIR

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətindən isə bildirildi ki, son dövrlərdə qlobal iqlim dəyişilmələri və ölkədə suya tələbatın artması şəraitində su ehtiyatlarından səmərəli istifadə sahəsində görülmüş işlər, o cümlədən iri su anbarlarının, hidroqovşaqların, suvarma və kollektor-drenaj şəbəkələrinin, nasos stansiyalarının və digər infrastrukturların tikilib istifadəyə verilməsi ölkədə su təminatının yaxşılaşdırılmasına, su itkilərinin qarşısının alınmasına, habelə aqrar sektorun dayanıqlı inkişafına mühüm töhfələr verib: “Əkinlərin su təminatı məqsədi ilə suvarma qrafikləri hazırlanır və Elektron Kənd Təsərrüfatı İnformasiya Sisteminə inteqrasiya edilir. Bu qrafiklər Kənd Təsərrüfatı Nazirliyinin rəsmi saytında yerləşdirilir. Mütəmadi olaraq sudan qənaətli və səmərəli istifadə, suvarma qrafikləri üzrə növbəliliyə riayət olunması ilə bağlı kənd təsərrüfatı məhsulları istehsalçılarının stabil su təminatına nail olunması, qeyri-məhsuldar su itkilərinin əhəmiyyətli dərəcədə azaldılması istiqamətində maarifləndirilməsi işləri həyata keçirilir”.

Üç əsrin qəzeti Kaspi COP29 Baku Azerbaijan


# NÜVƏ ENERJİSİ NÖVBƏTİ HƏDƏF KİMİ

AES-in ilkin tikinti xərcləri təxminən 5-6 milyard dollar arasında dəyişir. Lakin 40-60 il ərzində stabil gəlir mənbəyi kimi fəaliyyət göstərir və ildə təxminən 450-700 milyon dollar gəlir gətirir.

**SEVİNC ABBASOVA**

Son illər dünyada nüvə enerjisinə maraq artır. Azərbaycan da nüvə enerjisindən istifadə edən ölkələr siyahısına daxil ola bilər. Belə ki, ölkəmiz öz gələcəyi üçün enerji həlləri sırasına yeni bir seçim kimi nüvə enerjisini də əlavə etməyi düşünür. Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin (MAQATE) direktoru Rafael Qrossi BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində təşkil olunmuş "Nüvə enerjisi də daxil olmaqla aşağı karbon texnologiyasının maliyyələşdirilməsi" adlı tədbirdə deyib ki, beynəlxalq təşkilat olaraq məqsəd nüvə enerjisinə üz tutmağı hədəfləyən ölkələrin bu prosesi təhlükəsiz və problemsiz şəkildə həyata keçirməsini təmin etməkdir: "Bəzi ölkələrdə yeni layihələr var və COP zamanı "Yeni nüvə" dediyimiz məsələlər, xüsusilə də kiçik modul reaktorlar haqqında çoxlu maraqlı görüşlər keçirildi. Bu reaktorlar bu günlərdə hər kəsin diqqətini çəkən innovativ inkişafdır".

### DÜNYADA 440 NÜVƏ REAKTORU VAR

Ümumdünya Nüvə Assosiasiyasının hesabatına görə, bu gün dünyanın 30-dan çox ölkəsində təxminən 440 nüvə reaktoru var. Sözügedən reaktorlar qlobal elektrik enerjisi ehtiyacının 10 faizini ödəyir. Hazırda 12 ölkədə ümumilikdə 56 nüvə reaktoru tikilir. Həmin reaktorlardan 11-i 2027-ci ildə, 7-si 2028-ci ildə, 3-ü isə 2029-cu ildə elektrik enerjisi istehsal etməyə başlayacaq. Beş reaktor 2030-cu ildə elektrik şəbəkəsinə qoşulacaq. 2024-2030-cu illər arasında istifadəyə veriləcək 56 reaktorun ümumi quraşdırılmış gücü 62 min 300 meqavat olaraq hesablanır.

Bəs, görəsən, Azərbaycanda nüvə enerjisi istehsalının perspektivi varmı? Bu, nə dərəcədə realdır? Ölkəmiz üçün hansı dividendlər və risklər qazandıra bilər?

### DAHA AZ XAMMAL TƏLƏB EDİR

Kimya elmləri doktoru, professor Adil Qəribov deyir ki, Azərbaycanda nüvə energetikasının inkişafı üçün bir sıra perspektivlər mövcuddur: "Ölkəmiz regionda zəngin enerji resurslarına malik olsa da, nüvə energetikasının inkişafı enerji müxtəlifliyini təmin edə bilər. Nüvə energetikası karbon emissiyalarının azaldılması və uzunmüddətli enerji təhlükəsizliyi baxımından da vacib hesab olunur. COP28-in qərarına görə, yaxın 10 il müddətində nüvə enerjisi istifadəsinin güc potensialının 3-4 dəfə artırılması nəzərdə tutulur. Bununla bağlı böyük texnoloji proseslərin aparılması tələb olunur. Bu proseslərdən bizim ölkəmiz də heç vaxt kənarda qalmayıb. Hələ 2014-cü ildə cənab Prezident tərəfindən Milli Nüvə Tədqiqatlar Mərkəzi yaradılıb. Həmin Mərkəzlə Atom Enerjisi üzrə Beynəlxalq Agentlik arasında sıx əməkdaşlıq mövcuddur".

A.Qəribovun fikrincə, atom elektrik stansiyalarının (AES) tikintisi və istismarı çox xərc tələb etsə də, uzunmüddətli istismar dövründə iqtisadi səmərə yaradır: "Neft və qazla müqayisədə nüvə enerjisi daha az xammal tələb edir və sabit istehsal qiymətinə malikdir. Bu da onu uzunmüddətli iqtisadi inkişaf üçün cazibədar edir. Nüvə stansiyalarının istifadəyə verilməsi daxili tələbatı təmin etməyə kömək edərək, ixrac üçün daha çox qaz və neft ehtiyatı saxlamağa imkan yarada bilər. Məsələn, 1200 MVt-lıq AES ildə təxminən 9-10 milyard kilovatsaat enerji istehsal edə bilər. Bu göstərici Azərbaycan üçün daxili enerji tələbatının əhəmiyyətli bir hissəsini ödəməyə kifayət edər və qaz ixracını artırmağa imkan yaradar. 1200 MVt gücündə AES il ərzində təxminən 5-6 milyon ton karbon qazı emissiyasının qarşısını ala bilər. Bu, Azərbaycanın iqlim dəyişikliyi ilə mübarizə öhdəliklərinə də uyğun gəlir".




Adil Qəribov

## İLDƏ 700 MİLYON DOLLAR GƏLİR

Ekspert bildirir ki, AES-in ilkin tikinti xərcləri təxminən 5-6 milyard dollar arasında dəyişir: "Bu, stansiyanın texnologiya növündən, yer seçimi və infrastruktur ehtiyaclarından asılıdır. Tikinti müddəti orta hesabla 7-8 il çəkir. Bu istiqamətdə tələb olunan investisiyalar təxminən beş ildən sonra özünü doğrulda bilər. Rentabellik nöqtəsinə çatdıqdan sonra AES 40-60 il ərzində stabil gəlir mənbəyi kimi fəaliyyət göstərir və ildə təxminən 450-700 milyon dollar gəlir gətirir".

### NÜVƏ "YAŞIL ENERJİ"DİR?

İqtisadçı-ekspert Eldəniz Əmirov hesab edir ki, hələ uzun illər nüvə enerjisi inkişaf edən ölkələrin enerji təhlükəsizliyinin təmin olunmasında prioritet olaraq qalacaq: "Buna görə də Azərbaycanda nüvə enerjisinin istehsal olunması ölkənin həm enerji təhlükəsizliyi, həm qeyri-neft sektoru, eyni zamanda dayanıqlı iqtisadi göstəricilərin təmin olunması baxımından önəmlidir. Sadəcə bir faktı deyim ki, 2022-ci ilin əvvəlinə qədər Almaniya nüvə enerjisini zərərli, yaşıl olmayan enerji kateqoriyasına aid edirdi. Amma Rusiya və Ukrayna arasında münaqişə başlayandan sonra Almaniya tərəfi rəsmən bəyan etdi ki, nüvə enerjisi "yaşıl enerji"dir. Ona görə də Azərbaycan kimi ölkə də bu enerjini istehsal edə bilərsə, təbii ki, müsbət haldır. Amma söhbət o istehsaldan gedir ki, həmin istehsalın arxasında ən son model innovativ yanaşmalar tətbiq olunsun, digər yan təsirlər olmasın".


Eldəniz Əmirov

## BUNUNLA BAĞLI İLK NÖVBƏDƏ RİSKLƏR NƏZƏRƏ ALINMALIDIR

Enerji məsələləri üzrə ekspert Zəfər Vəliyev bildirir ki, nüvə enerjisi aşağı karbon texnologiyalarına aid enerji növüdür. Amma AES-lərdə radioaktiv maddələr istifadə edildiyi üçün ilk növbədə risklər nəzərə alınmalıdır: "Bu mənada COP29 Sədrliyi və BAEA-nın birgə təşkilatçılığı ilə keçirilən "Aşağı Karbon Texnologiyalarının, o cümlədən Nüvə Enerjisinin Maliyyələşdirilməsi" tədbiri çərçivəsində tərəflər arasında imzalanmış Memorandum enerji keçidi ilə bağlı qarşıdakı illərdə ölkədə enerji sisteminin şaxələndirilməsi istiqamətində atılan addımdır. İmzalanmış Memorandumun əsas məqsədi nüvə enerjisinin dinc məqsədlər üçün inkişafı üzrə birgə tədqiqatlar və layihələr həyata keçirməkdir. Təbii ki, AES-lərdə radioaktiv maddələr istifadə edildiyi üçün ilk növbədə risklər, əhalinin sağlamlığı, ətraf mühitin şəffaflığı nəzərə alınmalıdır".


Zəfər Vəliyev

# ZƏFƏRƏ APARAN “YOL”



## Elşən Zeynallı: “Dövlət başçısı haqqında sənədli film çəkmək asan deyil. Çünki rəsmiyyətlə poetika tərs mütənasibdir. Sənədli filmdə yaşanmış bir həyatı yenidən öz musiqinlə rəqs etdirmək, öz süzgəcindən keçirib dünyaya gətirmək çox çətin idi”.

**Fotolar:** Əjdər İbrahimov- Global Photostock



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Bu yol bizim şərəfli yolumuzdur. Hansı ki, Silahlı Qüvvələrin Ali Baş Komandanı, Prezident İlham Əliyevin ölkəmizin işğal olunmuş ərazilərinin azad olunması istiqamətində atdığı addımların fəlsəfəsini göstərir. Söhbət yaxın günlərdə nümayiş olunacaq, ssenarisi təxəyyülə deyil, konkret faktlara əsaslanan “Yol” filmindən gedir. Filmi fərqləndirən ikinci məqam, Prezident İlham Əliyevin bu günə qədər heç bir yerdə görmədiyimiz üç kadrının nümayiş olunmasıdır. Filmin rejissoru Elşən Zeynallı ilə “Yol”dan danışdıq.

### “BU TARİXİ ÇƏKMƏK ASAN DEYİLDİ”

**Elşən bəy, “Yol” necə ərsəyə gəldi?**

Yaradıcı insanlarda ideya daxildən gələndə onu işləmək rahat olur. Mədəniyyət Nazirliyi və ARKA tərəfindən bu filmin istehsalı mənə tapşırılanda sözün düzü, çox tərəddüd edirdim. Bu tərəddüd filmi çəkmək istəmədiyimdən deyildi. Hər bir azərbaycanlı rejissor üçün dövlət başçısı haqqında film çəkmək, tarixi şəxsiyyətdən bəhs etmək, Zəfər tarixini lentə almaq böyük qürurdur. Amma bu qürurun ucalığı altında hər bir insan məsuliyyət daşımalıdır. Tərəddüdlə filmi reallaşdırmaq arzusu bir-birinə qarışmışdı. “Yol”da Ulu Öndər Heydər Əliyevin ata və müəllim olaraq İlham Əliyevin siyasətçi, Prezident və ən nəhayət, xalqı Qarabağın azadlığı uğrunda savaşa aparacaq bir Lider kimi yetişdirməsindən bəhs edilir. Filmdə böyük həcmdə arxiv materialları toplanıb və üzərində işlənilib. Filmə ilk dəfə baxan şəxslərdən biri dedi ki, dövlət başçıları olduqca rəsmi şəxslərdir və onların həyatları ilə bağlı səmimi görüntülər çox azdır. Bu filmdə isə səmimiyyət var. Dövlət başçısı haqqında sənədli film çəkmək asan deyil. Çünki rəsmiyyətlə poetika tərs mütənasibdir. Sənədli filmdə yaşanmış bir həyatı yenidən öz musiqinlə rəqs etdirmək, öz süzgəcindən keçirib dünyaya gətirmək çox çətin idi. Şükürlər olsun ki, film daxili baxışda yüksək səviyyədə qəbul olundu. O gərginlikdən sonra filmin qəbul olunması sanki çiyinlərimizdəki yükü götürdü, rahat nəfəs aldıq.

**Film xalqın canlı şahidi olduğu tarixdən, yoldan bəhs edir. Materiallara baxdıqda, sizi bu xalqın nümayəndəsi kimi ən çox təsirləndirən süjet hansı idi?**

Məni ən çox təsirləndirən görüntülərdən biri Prezidentin atasının yanında gənc olarkən gəldiyi Şuşaya 39 il sonra bu ölkənin qalib Ali Baş Komandanı kimi qayıtmasıdır. O, həmin yerdə dayanır və deyir: “Biz buraya 39 il əvvəl atamla gəlmişdik, indi Ali Baş Komandan kimi gəlirəm”. Hər dəfə himn çalınanda, Prezident hərbi formada ordu qarşısında dayananda iri planda onun gözlərindəki ifadədə qüruru görürdüm. Biz tarix yaşadıq, bu tarixi çəkmək asan deyildi. Dövlət başçısının güllələnmiş heykəllərin qarşısındakı ifadəsi, Ali Baş Komandan kimi atasının məzarı üzərində, “Ata, vəsiyyətin yerinə yetirildi” dediyi hissə çox təsirlidir. Dövlətin məsuliyyətini daşımaq və üzərinə düşən öhdəliyi qürurla yerinə yetirmək hər liderə qismət olmur. Bu, bir tarixdir, millətin qürurudur. Filmdə elə məqamlar var idi ki, onlar dövlət arxivində idi, toxunmaq olmazdı. Orxan Fikrətoğlu və mədəniyyət naziri Adil Kərimovun rəhbərliyi altında dövlətin arxivlərindən materiallar qaldırılırdı və bizə təhvil verilirdi. Məsələn, bəzən gecə gec saatlarda ağlıma 17 yaşımda gördüyüm kadr gəlirdi. Zəng edirdim ki, onu tapın. Onu tapıb mənə gətirirdilər. Kinorejissor böyük mətbəxdə şef aşpazdır. Hamı gözünü dikib dadlı yemək gözləyir. Amma ona ləvazimatları keyfiyyətli vermək lazımdır. Filmə lazım olan bütün materiallarla bizi təmin etdilər. Mən qürurluyam ki, bu işi reallaşdırdım.



### “O, HƏM ATASINI QORUYURDU, HƏM DƏ...”

**Sizcə, bu yol haradan başlayır?**

Sovet İttifaqının sonudur, 20 Yanvar faciəsi yaşanıb. Heydər Əliyev Moskvadakı Azərbaycan nümayəndəliyinin binasına gəlir. İlham Əliyev də onun arxasındadır. O, həm atasını qoruyurdu, həm də dövlətçilik məktəbinin ilk sinfində idi. Heydər Əliyev Moskvadakı nümayəndəliyə gələndə heç kim orada təxribat olmayacağını deyə bilməzdi. Çox təhlükəli idi. Dünyaca məşhur siyasətçi Heydər Əliyev Sovet İttifaqının paytaxtında onlara qarşı ittiham irəli sürürdü. Xalqına qarşı törədilən bütün bu bəlaların səbəbkarı kimi SSRİ rəhbərliyini günahlandırırdı. İlham Əliyevin liderlik dərsi məhz həmin andan başlayır. Bu, 2003-cü ilə qədər davam edir. Onun keçdiyi dövlətçilik məktəbi çox dəyərli idi, nəticəsini də göstərdi. Ulu Öndər bütün dünya üçün müəllim idi və İlham Əliyev kimi qalib sərkərdə yetişdirdi.

## “BU, BİZİM BİRLİKDƏ GETDİYİMİZ YOLUN NƏTİCƏSİ İDİ”



**Təklifi qəbul etdikdən sonra filmin çəkilişinə necə hazırlaşdınız?**

Film haqqında eşidəndə bir həftə boş-boş gəzmişəm. Qışda dənizi sevməsəm də, sakitlik olduğu üçün termosumu götürüb dəniz kənarında bir qayanın üzərində oturub düşünür, fikirlərimlə təkbətək qalırdım. Bir həftə sonra məndə filmlə bağlı təəssüratlar yaranmağa başladı. Artıq işə sahiblənmişdim. Prezidentin kadrlarını hamı görüb. Amma istəyirdim ki, ona fərqli aspektdən də baxılsın, düşündürsün. Məsələn, Ulu Öndər Heydər Əliyevin işğal olunan rayonlarımızın gözəlliyini tərənnüm edən fikirlərini hamı eşidib. Biz filmdə onu fərqli təqdim etdik. Prezident Qarabağa gedir və atasının səsini eşidir. Ulu Öndərin səsinin fonunda dağıdılmış Qarabağ göstərilir. Bu o deməkdir ki, torpaqların “ölü”sünü alsaq da, biz onu dirçəldirik.

**Maraqlıdır, 17 yaşınızda olarkən gördüyünüz kadr hansı idi?**

Sovet dövründə o kadrı görmüşdüm. Bir azərbaycanlı ana soyuq zalda Azərbaycan bayrağını əllərində iynə ilə tikirdi. O kadrı mənim üçün tapdılar. Biz iynə ilə balaca daxmada tikilən Azərbaycan bayrağından əsgərin çiynində və Dövlət Bayraq Meydanında dalğalanan əzəmətli bayrağımıza keçid etdik. Bu, bizim qələbəmiz, birlikdə getdiyimiz yolun nəticəsi idi.

ÇİNDƏ İKİ DƏFƏ ƏN YAXŞI XARİCİ TƏLƏBƏ SEÇİLƏN HƏMYERLİMİZİN UĞUR HEKAYƏSİ “KASPİ”DƏ




Zərif Salmanlı
zarifsalmanli@kaspi.az

# NASA-NIN CƏLİLABADLI ALİMİ







**Bəhruz Əhədov:** “Asiya ölkələrində təhsil almaq müəyyən dərəcədə stresli prosesdir. Orada tələblər yüksəkdir. Bizim ali təhsil sistemimizdə doktorantura səviyyəsində gözlənilən nəticələr, Çində ali təhsilin bakalavr səviyyəsindəki tədqiqatlarda tələb olunurdu”.

Orta təhsilini Cəlilabad şəhəri səkkiz saylı Texniki və Humanitar fənlər təmayüllü məktəb-liseydə alıb. 2005-ci ildə Bakı Dövlət Universitetinin Geologiya fakültəsinin Geofizika ixtisasına qəbul olub. Bakalavr pilləsində təhsil aldığı dövrdən Geologiya və Geofizika İnstitutunda böyük laborant olaraq fəaliyyətə başlayıb. 2011-ci ildə BDU-nun Seysmologiya və seysmometriya ixtisaslaşması üzrə magistr adını qazanıb. Magistraturanın sonuncu tədris ilində DAAD mübadilə proqramının qalibi kimi tədqiqat işini Almaniya Yer Elmlər Mərkəzində aparıb. 2015-2019-cu illərdə Çin Milli Elmlər Akademiyası Universiteti Şanxay Astronomiya rəsədxanasını bitirib. Çin Elmlər Akademiyasında Kosmik Geodeziya və Geodinamika üzrə doktorantura təhsili alıb. Təhsil aldığı dövrdə Akademiya tərəfindən iki dəfə ən yaxşı xarici tələbə seçilib. “Şərqi Aralıq dənizi və Qafqaz bölgəsində yer qabığı deformasiyasının GPS və seysmik məlumatlar əsasında öyrənilməsi” mövzusunda tədqiqat işini uğurla müdafiə edərək astrometriya və fəza cisimləri üzrə fəlsəfə doktoru elmi dərəcəsini alıb. Daha sonra Pekin Universitetinə müraciət edib və orada "BOYA" adlanan postdoktorantura proqramının qalibi olub. Bu proqramda regiondan tək qalib seçilib.



Söhbət hazırda NASA-nın “Reaktiv Hərəkətlər Laboratoriyası”nda (JPL) Postdoktoral Tədqiqatçı kimi fəaliyyət göstərən Bəhruz Əhədovdan gedir. O, ABŞ Dövlət Departementinin təşkil etdiyi qlobal təhsil mübadilə proqramı olan “Fullbright” təqaüd proqramının da qalibidir. Xatırladaq ki, B.Əhədov Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi və Çin Elmlər Akademiyası Universitetinin əməkdaşı olub. Uğurları, NASA-dakı fəaliyyəti ilə bağlı Bəhruz Əhədovla söhbətləşdik.

## “ƏN BÖYÜK UĞURUM NASA İLƏ BAĞLIDIR”

● **Bəhruz bəy, 2005-ci ildə geofizika ixtisasını seçərkən düşünürdünüz ki, zaman gələcək və NASA-da alim kimi fəaliyyət göstərəcəksiniz?**

● O zaman indiki kimi geniş informasiya mənbələri və yüksək məlumatlılıq səviyyəsi yox idi. Peşə seçimi ilə bağlı məsləhət ala biləcəyim kifayət qədər mütəxəssis və ya istiqamət verən şəxslər də mövcud deyildi. Bu məhdudiyyətlər daxilində özüm araşdırma apararaq geofizikanın nə olduğunu və mənə gələcəkdə hansı imkanları verə biləcəyini öyrənməyə çalışdım. Elmi tədqiqat fəaliyyətimdə daim yenilik və fərqlilik axtarmağı sevmişəm. Geofizika sahəsini araşdırarkən düşünürdüm ki, burada qeyri-adi bir şey öyrənə və yeni biliklər əldə edə bilərəm. O dövrdə ətrafımdakı insanların çoxu iqtisadiyyat, hüquq, neft-qaz və tibb kimi populyar ixtisasları seçirdi. Lakin mən fərq yaratmağı sevdiyim üçün bu sahələr marağımı çəkmirdi, buna görə də geofizikanı seçdim.

● **Uğurlarınız olduqca genişdir. Bəs sizcə, bunlardan hansı Bəhruz Əhədovu daha çox təmsil edir?**

● İndiyə qədər olan fəaliyyətlərim arasında ən böyük uğurum NASA ilə bağlıdır. Doktorantura təhsili illərində NASA-da tədqiqatçı kimi çalışmağı arzulamışam. Çindəki təhsil dövrümü də mühüm bir nailiyyət kimi qiymətləndirirəm. Çünki NASA-ya gedən yol elə Çində əldə etdiyim bilik və bacarıqların nəticəsidir.

> *“NASA-da fəaliyyət göstərmək mənim üçün yalnız şəxsi qürur deyil, eyni zamanda ölkəmi beynəlxalq arenada təmsil etmək imkanıdır. Fəaliyyətim başa çatdıqdan sonra geri dönməyi düşünürəm, çünki buradakı araşdırmalarımın əsas məqsədi əldə etdiyim bilik və təcrübələri ölkəmizdə və regionda tətbiq etməkdir.”*

## “ASİYA ÖLKƏLƏRİNDƏ TƏHSİL ALMAQ STRESLİ PROSESDİR”

● **Bir az Çindəki təhsilinizdən bəhs edə bilərsiniz?**

● Çindəki təhsil mənə elmi baxımdan əhəmiyyətli dərəcədə inkişaf imkanı verdi. Təhsil təcrübəm olduqca çətin keçdi, çünki Asiya ölkələrində təhsil almaq müəyyən dərəcədə stresli prosesdir. Orada tələblər yüksəkdir. Bizim ali təhsil sistemimizdə doktorantura səviyyəsində gözlənilən nəticələr, Çində ali təhsilin bakalavr səviyyəsindəki tədqiqatlarda tələb olunurdu. Magistraturada təhsil alan tələbələrin apardığı tədqiqatlar bizim aldığımız təhsillə müqayisədə əhəmiyyətli dərəcədə yüksək səviyyədə idi. Ölkəmizdəki dərslər kifayət qədər faydalı olsa da, Çindəki təhsil sisteminin standartları və elmi tədqiqatlara yanaşması daha spesifik tələblərə cavab verirdi. Bu səbəbdən Çindəki ilk təhsil ilimdə bir çox mövzunu yenidən öyrənməyə qərar verdim.

## “MƏQSƏDİMDƏN HEÇ VAXT DÖNMÜRƏM”

● **Fəaliyyətinizdə yaşadığınız çətinliklər sizi nə vaxtsa məqsədinizdən yayındırıb?**

● Mən heç vaxt işimlə bağlı hər hansı bir vəziyyətdə bezməmişəm. İnanıram ki, burada olduğum yerə qədər gəlməyimin əsas səbəblərindən biri də vaz keçməməyimdir. Uğura aparan yolda nizam-intizam mütləqdir. Bu, qarşıma qoyduğum məqsədlərə çatmağı asanlaşdırır. Hər gün müəyyən vaxt ayıraraq tədqiqatlarım üzərində işləmək və yeni biliklər əldə etmək nizamın bir təzahürüdür. Eyni zamanda, intizam, çətinliklər qarşısında dayanma gücünü artırır və neqativ hallarla mübarizədə mənə dəstək olur. Tədqiqat zamanı qarşıma çıxan çətinliklərdən ilham alaraq daha da irəliləməyə müvəffəq oluram. Düzdür, bəzən neqativ hallarla da qarşılaşmışam. Lakin elm yolunda irəliləyərkən yalnız müsbət nəticələr gözləmək doğru deyil. İnsan bu hadisələri təcrübə və motivasiya mənbəyi kimi qəbul etməlidir. Beləliklə, məqsədimdən heç vaxt dönmürəm. Hər zaman daha yaxşısını hədəfləyərək irəliləməyə çalışıram. Bu yanaşma, mənim elmi inkişafım üçün mühüm bir element-dir.



## “BU GÖRÜNTÜLƏRİ HƏLƏ DƏ XATİRƏ OLARAQ SAXLAYIRAM”

● ***Tez-tez müxtəlif konfranslarda, tədbirlərdə çıxışlar edirsiniz. Onların sizin fəaliyyətinizdəki yerini necə ifadə edərsiniz?***

● *Peyk texnologiyaları sahəsində ölkəmizdə çalışanların sayı olduqca azdır. Bu səbəbdən nəticələr əldə etdikdə müzakirələr aparmaq üçün uyğun mütəxəssisləri tapmaq çətinlik yaradır. Lakin konfranslarda bu sahədə ixtisaslaşmış şəxslərin əhatəsində olmaq hər tədqiqatçı üçün olduqca vacibdir. Əldə etdiyiniz nəticələri paylaşmağa, müzakirələr aparmağa və yeni ideyalar kəşf etməyə imkan tanıyır. Bu cür mühitdə insanlar sizin tədqiqat nəticələrinizlə tanış olur, siz də digər alimlərin təqdimatlarını izləyirsiniz. Hər tədbirdən qayıdanda yeni biliklər əldə edir, müxtəlif ideyalarla geri dönürəm. Həmişə düşünürəm ki, bu ideyaları tətbiq edərək növbəti konfransa qədər hazır vəziyyətə gətirməliyəm. Bu il Avstriyada keçirilən konfransda təqribən 25 min iştirakçı arasında Xəzərlə bağlı tədqiqatımız Amerika Geofizika Cəmiyyəti tərəfindən seçilmiş və qlobal olaraq yayımlanmışdır.*

● ***Tədqiqatlarınız zamanı sizi ən çox cəlb edən nədir?***

● *Fəaliyyətim əsasən yer elmləri ilə əlaqədardır. Apardığım tədqiqatlardan əldə etdiyim nəticələr, xüsusilə zəlzələ və vulkanlarla bağlı olanlar, məni çox valeh edib. Yerin səthində olduğumuz üçün yerin altında baş verən bir çox geodinamik proseslərdən xəbərsiz qalırıq. Lakin müasir texnologiyalar, xüsusilə peyk dataları və geofizika tədqiqat metodları vasitəsilə yerin altındakı prosesləri izləmək və analiz etmək mümkündür. Bu texnologiyalar sayəsində başqalarının görə bilmədiyi hərəkətliliyi aşkar etmək imkanı yaranır ki, bu da elmi tədqiqatların dərinliyini artırır. Həm də elmin inkişafında innovativ yanaşmaların və müasir texnologiyaların rolunu vurğulayır. Peyk texnologiyası ilə tanışlığım Çində təhsil aldığım dövrdə başlamışdı. Bu yüksək texnologiyanı zəlzələlərin öyrənilməsində ilk dəfə 2017-ci ildə İranda baş vermiş zəlzələyə tətbiq etdim. O zaman əldə etdiyim nəticələr o qədər maraqlı görüntülərə - rəng çalarları, qırılmaların təsviri və digər elementlərə səbəb olmuşdu ki, bu görüntüləri hələ də xatirə olaraq saxlayıram.*

## “ƏSAS MƏQSƏDİM TƏCRÜBƏLƏRİMİ ÖLKƏMİZDƏ TƏTBİQ ETMƏKDİR”

● **Peyk texnologiyası sayəsində əldə edilən gözəlliklərdən bəhs etdiniz. Bu texnologiyalardan başqa hansı məqsədlər üçün istifadə etmək olar?**

● Əvvəl elm yanıla bilirdi, lakin texnologiyanın inkişafı ilə bu ehtimal əhəmiyyətli dərəcədə azalıb. Bunun səbəbi əldə edilən məlumatların və dataların dəqiqliyidir ki, bu da yanılma ehtimalını minimuma endirir. Texnologiya irəlilədikcə, gələcək ilə bağlı daha çox məlumat əldə etmək mümkündür. Məsələn, zəlzələdən sonra vulkanların püskürməsi və ya aktivləşməsi barədə proqnozlar verilir. Bu proqnozlar bəzən özünü doğruldur, lakin çox hallarda doğrultmur. Bu məsələ ilə bağlı tədqiqatlar aparmışıq. İlk dəfə Azərbaycanda peyk texnologiyası istifadə edərək bu fikrin hər zaman özünü doğrultmadığını analiz edib vizuallaşdırdıq. Texnologiya vasitəsilə bu tədqiqatların dəqiqliyini öyrənirik, çünki bəzən insanın getməsi çətin olan yerlər mövcuddur ki, bu da əlavə resurslar və texnologiya tələb edir. Lakin peyk texnologiyası ilə istənilən anda və istənilən ərazini araşdırmaq mümkündür. Bu cür tədqiqatların sayəsində gələcəyi planlaşdırmaq imkanını əldə edirik.

## “BÜTÜN MƏLUMATLAR ƏLİNİZİN ALTINDADIR”

● **Elə texnologiyanın bizə verdiyi imkanlardan bəhs etmişkən, dünyanı bu texnoloji datalarla təmin edən NASA-dan danışa bilərsinizmi?**

● “Fullbright” proqramını qazandım və indi NASA-nın Reaktiv Hərəkət Laboratoriyasındayam (JPL). Burada bütün sistemlər yüksək texnologiya ilə idarə olunur və proqramlar o qədər əlverişlidir ki, insan nəticələr aldıqca, daha çox nəticə əldə etmək istəyi yaranır. Bu texnologiya hər bir mərhələdə yeni biliklər öyrənməyə imkan tanıyır. Planetlərin öyrənilməsi, tədqiqatların aparılması, uçuşların həyata keçirilməsi, peyklərin hazırlanması və sair JPL-də baş verir. Burada təhlükəsizlik tədbirləri yüksək səviyyədədir. Axtarış aparmağa ehtiyac yoxdur, çünki bütün məlumatlar əlinizin altında mövcuddur. Lakin bütün bu məlumatlar şəxsi kompüterinizlə təmin edilmir, sizə verilən texnologiya ilə işləməlisiniz.

● **NASA gözləntilərinizi doğrulda bildimi?**

● Bura gəlməzdən əvvəl alimlərin suallarıma necə cavab verəcəkləri və məni necə qarşılayacaqları ilə bağlı bəzi qeyri-müəyyənliklərim var idi. Lakin burada insanlarla tanış olduqdan sonra onların son dərəcə səmimi və dəstəkləyici olduqlarını anladım. Mentorum dünyada tanınmış alimlərdən biridir, lakin o, hər zaman tədqiqatlarımla maraqlanır. Suallarım olduqda ona yazıram və ya üz-üzə müzakirələr aparırıq. Hazırda özümü xəyal etdiyim elmi mühitdə hiss edirəm. Burada dərin və əhatəli tədqiqatlar aparılır və artıq ikinci ayımdır ki, əldə etdiyim biliklərin faydasını görürəm. Müəyyən elmi nəticələrə nail olmuşuq.

● **Artıq müəyyən elmi nəticələr əldə etmisiniz. Bəs NASA-da fəaliyyətiniz başa çatdıqdan sonra bu öyrəndiklərinizi ölkəmizdə də tətbiq etməyi düşünürsünüzmü?**

● NASA-da fəaliyyət göstərmək mənim üçün yalnız şəxsi qürur deyil, eyni zamanda ölkəmi beynəlxalq arenada təmsil etmək imkanıdır. Fəaliyyətim başa çatdıqdan sonra geri dönməyi düşünürəm, çünki buradakı araşdırmalarımın əsas məqsədi əldə etdiyim bilik və təcrübələri ölkəmizdə və regionda tətbiq etməkdir. Elə tədqiqat sahəm də əsasən Azərbaycan və Xəzər dənizi ətrafındakı bölgələri əhatə edir. Eyni zamanda, NASA ilə əməkdaşlığımı davam etdirərək, digər tədqiqat mərkəzləri ilə də sıx əlaqələr qurmağı planlaşdırıram. Bu yanaşma elmi inkişafımızın müasir standartlara uyğun şəkildə irəliləməsinə və milli elmi potensialımızın artırılmasına kömək edəcək. Qafqaz regionu genişmiqyaslı elmi tədqiqatlar üçün olduqca əlverişli laboratoriya rolunu oynayır. Lakin materialların köhnə olması və əlçatan olmaması narahatlıq doğurur. Yeni texnoloji yeniliklərə o qədər də müraciət edilmir. Biz dünya ilə ayaqlaşmalıyıq və ətrafımızdakı ölkələrlə kifayətlənmək doğru deyil. Çox istərdim ki, bu müasir texnologiyalar ölkəmizdə də tətbiq olunsun. Çünki peyk məlumatlarına bütün sahələrdə ciddi ehtiyac var.



## “Azərsun” Mavi Zonada panel müzakirəsi təşkil edib

Ölkəmizdə təşkil edilən COP29-un Dayanıqlı İnkişaf Tərəfdaşı olan “Azərsun Holdinq” müxtəlif təbirlər həyata keçirməyə davam edir. Bu dəfə adıçəkilən şirkətlər qrupu Mavi Zonada “Suyun dayanıqlılığı və iqlim dəyişikliyi: Kənd təsərrüfatı, infrastruktur və biznesin davamlılığına təsirlər” mövzusunda panel müzakirəsi təşkil edib. “Azərsun Holdinq”in İdarə Heyətinin üzvü Nailə Mehrabova və xarici ekspertlərin iştirakı ilə kənd təsərrüfatında su ehtiyatlarının dayanıqlı istifadəsi üçün müasir texnologiyalar və atılmalı addımlar müzakirə edilib.

Şirkətlər qrupunun rəsmisi “Azərsun”un COP29 çərçivəsində ilk dəfə olaraq Econar, Eco19 startaplarını təqdim etdiyini bildirib və kənd təsərrüfatında su ehtiyatlarının qorunması istiqamətində tətbiq edilməsi nəzərdə tutulan yeniliklər barədə məlumat verib.

Müzakirələrin yekununda xarici qonaqlara “Azerçay” tərəfindən xüsusi hədiyyə dəsti təqdim edilib.

Qeyd edək ki, “Azərsun Holdinq” COP29 çərçivəsində gündəlik olaraq daxili pavilyonunda dayanıqlı inkişaf istiqamətində müxtəlif panel müzakirə, təqdimat və çıxışlar təşkil edir.

# “YAŞIL GƏLƏCƏK” ÜÇÜN QƏTİYYƏTLİ ADDIMLAR




**SOCAR-ın vitse-prezidenti Ziba Mustafayeva: “2035-ci ilə qədər həm karbohidrogen, həm də aşağı karbonlu enerji mənbələrindən ibarət diversifikasiya edilmiş portfelə və qlobal enerji liderləri ilə rəqabətə davamlı emissiya profilinə malik milli enerji şirkəti olmaq məqsədimiz var”.**

İqlim dəyişikliyi ilə əlaqədar yaşanan böhranın nəticələrini yumşaltmaq zərurəti qlobal miqyasda hər kəsi, o cümlədən şirkətləri ciddi tədbirlər görməyə məcbur edir. “Report” xəbər verir ki, bunu Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) vitse-prezidenti Ziba Mustafayeva COP29 çərçivəsində “Hər kəsə ədalətli keçid üçün nəzəriyyədən təcrübəyə: regionlararası yüksək səviyyəli Cənub-Cənub siyasi dialoqu” mövzusunda keçirilən tədbirdə deyib.

### “YAŞIL GƏLƏCƏY”Ə SADİQİK”

Z.Mustafayeva qeyd edib ki, SOCAR “yaşıl gələcək” üçün qətiyyətli addımlar atmağa sadiqdir: “Bir şirkət olaraq enerji keçidi və transformasiya səyahətinə başlamışıq. SOCAR neft və qaz dəyər zəncirinin bütün mərhələlərində fəaliyyət göstərən milli neft-qaz şirkətidir. 2035-ci ilə qədər həm karbohidrogen, həm də aşağı karbonlu enerji mənbələrindən ibarət diversifikasiya edilmiş portfelə və qlobal enerji liderləri ilə rəqabətə davamlı emissiya profilinə malik milli enerji şirkəti olmaq məqsədimiz var”.

### SIFIR EMİSSİYALI MİLLİ ENERJİ ŞİRKƏTİ

SOCAR-ın 2050-ci ilə qədər sıfır karbon emissiyasına nail olmağı hədəflədiyini bildirən vitse-prezident əlavə edib ki, bu məqsədə çatmaq üçün mərhələlər və konkret hədəflər müəyyənləşdirilib: “Belə ki, 2030-cu ilədək adi qaz məşəllərinin tamamilə ləğvi, 2035-ci ilədək korporativ və mütləq emissiyaların 20-30% azaldılması, metan emissiyalarının sıfıra yaxınlaşdırılması, 2050-ci ilədək qlobal enerji təhlükəsizliyinə və iqlim davamlılığına töhfə verən sıfır emissiyalı milli enerji şirkətinə çevrilmək hədəfi mövcuddur”.

## ÜÇ ƏSAS İSTİQAMƏT

SOCAR-ın transformasiya strategiyasını şərh edən Z.Mustafayeva bildirib ki, bu proses üç əsas istiqamət üzərində qurulub: “Birinci istiqamət üzrə - korporativ karbonsuzlaşma tədbirləri çərçivəsində emissiyaların azaldılması və ekoloji davamlılığa nail olunması nəzərdə tutulur. İkinci istiqamət üzrə - aşağı karbonlu biznesin inkişafı çərçivəsində günəş, külək, geotermal enerji, yaşıl hidrogen və davamlı yanacaq kimi sahələrin inkişaf etdirilməsi planlaşdırılır. Nəhayət, üçüncü istiqamət üzrə yeni əməliyyat modelinin tətbiqi nəzərdə tutulur. Şirkət 2023-cü ildə enerji keçidi, ətraf mühit və dekarbonizasiyanı əhatə edən yeni bir struktur təsis edib. Bu, sadəcə müstəqil bir bölmənin yaradılması deyil, həm də bu istiqamətdə işlərin şirkətin bütün fəaliyyətlərinə inteqrasiyasını təmin etməkdir. Beləliklə, biz şirkətin DNT-sini dəyişdiririk. Bu dəyişiklikləri dəstəkləmək üçün əməliyyat modelini yeniləməli, dəyər zəncirində və strukturda islahatlar aparmalı, eyni zamanda işçi heyətinin bacarıqlarını artırmalıyıq”.

Vitse-prezidentin sözlərinə görə, yeni model çərçivəsində SOCAR əsas performans göstəricilərini müəyyənləşdirib və bu göstəriciləri idarəetmə və motivasiya sistemlərinə inteqrasiya edib: “Bu yanaşma şirkətin bütün sahələrində hədəflərə çatmağa imkan yaradır”.

# “Nar” uşaqlar üçün təhlükəsiz rəqəmsal mühitə töhfə verir

Regionlarda sosial məsuliyyət təşəbbüsləri ilə seçilən “Nar” Regional İnkişaf İctimai Birliyi (RİİB) ilə birgə 20 Noyabr - Ümumdünya Uşaq Hüquqları Gününə həsr edilmiş yeni layihəyə start verib. Layihə çərçivəsində Naxçıvan, Bakı, Gəncə, Lənkəran və Qəbələdə bir ay ərzində uşaqların rəqəmsal mühitdə təhlükəsizliyinin təmin edilməsi ilə bağlı geniş maarifləndirmə tədbirləri həyata keçiriləcək.

İlkin mərhələdə “Uşaqların zərərli və təhlükəli məlumatlardan qorunması” mövzusunda onlayn görüş keçirilib. Bu tədbirdə Naxçıvan, Bakı, Gəncə, Lənkəran və Qəbələdəki 10 məktəbdən VII-XI sinif şagirdləri və müəllimlər iştirak ediblər. Dövlət rəsmiləri və mütəxəssislər görüş zamanı rəqəmsal resurslardan düzgün və təhlükəsiz istifadə qaydaları barədə ətraflı məlumat verib və iştirakçıların suallarını cavablandırıblar.




Qeyd edək ki, layihə Elm və Təhsil Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili, Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası və ADA Universitetinin tərəfdaşlığı ilə həyata keçirilir.

“Nar” bu təşəbbüslə elm və təhsilə verdiyi dayanıqlı dəstəyin bir hissəsi olaraq, uşaq hüquqlarının qorunması və rəqəmsal mühitdə təhlükəsiz davranış qaydalarının öyrədilməsi işinə mühüm töhfə verir. Xüsusilə regionlarda həyata keçirilən bu layihə gələcək nəsillərin təhlükəsiz rəqəmsal mühitdə böyüməsi üçün vacib platforma yaradır.

ÜÇ ƏSRİN QƏZETİ Kaspi
Təsisçi
**Global Media Group**
Baş redaktor
**İlham Quliyev**
Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Rüstəm Qaraxanlı, Aqşin Kərimov, Xanım Aydın, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**
Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**
Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**
Qəzet “Azərbaycan” nəşriyyatında çap olunub.
Sifariş: 2731
Tiraj: 2350
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

SEPARATÇI REJİM DAXİLİNDƏ İQTİSADİ MARAQLARIN TOQQUŞDUĞU KLAN MÜHARİBƏSİ

# ABXAZİYADAKI GƏRGİNLİYİN PƏRDƏARXASI MƏQAMLARI

Əksər gürcülər Suxumidə baş verənləri sevinclə qarşılayırlar. Onlara elə gəlir ki, abxazlar Rusiyaya qarşı üsyan ediblər. Reallıqda isə Abxaziyadakı etirazlar mülkiyyət hüquqları, institutsional nəzarətin olmaması və müxtəlif siyasi qruplar arasındakı daxili mübarizə ilə bağlı məsələlərə toxunur.



AZƏR NURİYEV

Bir müddət davam edən gərginlikdən sonra Gürcüstanın işğal altındakı Abxaziya regionunda sabitlik yaranıb. Lakin bunun nə qədər davam edəcəyi bəlli deyil. Özünü müstəqil elan edən, Rusiyanın himayəsi altında olan qondarma respublikada müxalifətlə hakimiyyət arasında gərginlik "prezident" Aslan Bjaniyanın istefasına səbəb olub. Onunla yanaşı, "baş nazir" Aleksander Ankvab da öz vəzifəsini tərk edib. Ankvab 2011-2014-cü illərdə qondarma respublikaya rəhbərlik edib. Rusiya ilə yaxınlaşmağın, rus dilinin statusunun qaldırılmasının tərəfdarı olub. Bjaniyanın vəzifəsini "vitse-prezident" Badra Qunba icra edəcək. Abxaziyada "hökumət" və müxalifət nümayəndələri "prezident" Aslan Bjaniyanın istefa verdiyini bildirən saziş də imzalayıblar.

Etirazların səbəbi yerli "hakimiyyət"in Rusiya ilə investisiya sazişini ratifikasiya etmək niyyətidir. Etirazçıların fikrincə, bu, iri rus şirkətləri tərəfindən yerli biznesin sıxışdırılmasına gətirib çıxaracaq. İğtişaşlar noyabrın 11-də təhlükəsizlik qüvvələrinin beş müxalifətçini saxlamasından sonra başlayıb. Fəallar sərbəst buraxıldıqdan sonra mitinqlər müvəqqəti olaraq dayandırılıb, lakin noyabrın 15-də parlament sazişin ratifikasiyası məsələsinə baxmalı olanda yenidən başlayıb.

## RUSİYAYA QARŞI İLK ETİRAZ

Beləliklə, ilk dəfədir ki, Abxaziyada Rusiyaya qarşı narazılıq yaşanır. Özü də proses Rusiya ilə Gürcüstan arasında münasibətlərin normallaşması dövrünə təsadüf edir. Gürcüstan ərazisi olan bölgəyə nəzarət Rusiyanın əlində olsa da, gələcəkdə vəziyyət dəyişə də bilər. Bölgə gələcəkdə Rusiyanın nəzarətindən çıxacaqmı? Bunu zaman göstərəcək.

## GÜRCÜSTANDAN BAXIŞ

Qondarma qurumda baş verən hadisələr Gürcüstanın siyasi gündəminə elə də təsir etməyib. Hələlik bu ölkənin nə hökuməti, nə də siyasi partiyaları Abxaziyada baş verənləri dəyərləndirməyib. Bu mövzu media məkanında və sosial şəbəkələrdə də görünmür. Yeganə istisna Mixail Saakaşvilinin "Facebook"da abxazların gürcülərin etməli olduqlarını etdiklərini, yəni "Rusiyanın müstəmləkə qanununu" blokladıqlarına dair şərhidir. Hazırda həbsdə olan eks-prezident bildirib ki, Suxumidəki nümayişlər Gürcüstanın qalan hissəsi üçün nümunədir, lakin onların öz riskləri də var. "Abxazlar Rusiyanın müstəmləkəçilik qanununu əngəlləməklə bütün Gürcüstanın işini gördülər. Bununla belə, abxazların qələbəsində bir təhlükə var: onlar öz uğurlu mübarizəsi ilə Qərbin rəğbətini qazanacaqlar. Bu, bizi Gürcüstanın qalan hissəsində mübarizəmizi qələbəyə aparmağa məcbur edir. Əks halda, demokratik dünyanın Gürcüstandan üz döndərib rəğbətini abxazlara yönəltməsi təhlükəsi var və bu, bizə geri çəkilmək şansı qoymur", - deyə Saakaşvili bildirib.




## HÖKUMƏTİN ABXAZ SİYASƏTİ YOXDUR

Ümumiyyətlə, Abxaziya hadisələrinin təhlili ilə bağlı Tbilisidə kəskin böhran hökm sürür. Hökumətin abxaz siyasəti yoxdur. Gürcüstan mətbuatına gəlincə, Abxaziya ilə Rusiya arasında münasibətlərdə böhranın Suxuminin Tbilisiyə tərəf dönməsinə səbəb olduğu ehtimalları güclüdür. Əksər gürcülər tərəfindən Suxumidə baş verənlər sevinclə qarşılanır. Onlara elə gəlir ki, abxazlar doğrudan da Rusiyaya qarşı üsyan ediblər. Reallıqda Abxaziyadakı etirazlar torpaq mülkiyyət hüquqları, institutsional nəzarətin olmaması və müxtəlif siyasi qruplar arasında daxili mübarizə ilə bağlı məsələlərə toxunur.

## RUSİYADAN ASILILIQ

Tanınmamış qurum iqtisadi cəhətdən Rusiyadan çox asılıdır. Abxaziyanın keçmiş "xarici işlər naziri" İnal Ardzinba 2023-cü ildə demişdi ki, 2008-ci ildən Moskva onlara 110 milyard rubla yaxın vəsait verib. Bundan əlavə, 2023-cü ildə respublikanın ümumi xarici ticarət dövriyyəsinin 72%-i Rusiyanın payına düşüb. Rusiyanın iqtisadi inkişaf nazirinin müavini Dmitri Volvaç mart ayında qeyd edib ki, təkcə 2024-cü ildə Rusiyanın Abxaziyaya maliyyə yardımının həcmi 5,6 milyard rubl təşkil etməlidir. Rusiya hökuməti Abxaziyanın daxili proseslərinə qarışmadığını iddia edir. Onlar ümid edirlər ki, problemlər siyasi yolla həll olunacaq. Qafqaz üzrə ekspert Artur Atayev siyasi böhranın inkişafında optimist deyil: "İki barışmaz düşərgə yaranıb. Yaxşı olan odur ki, bir-birilərinə qarşı sərt addımlardan çəkinirlər. Bu o deməkdir ki, növbəti mərhələ vasitəçilik missiyasının ortaya çıxması olmalıdır. Amma bu rolu kimin üzərinə götürəcəyi hələ məlum deyil: Rusiya, Cənubi Osetiya, yoxsa başqası".

Çox güman ki, Abxaziyada qurulacaq yeni "hakimiyyət" ilk növbədə Tbilisi ilə münasibətləri bərpa etməyə çalışacaq. Çünki bu həm də Abxaziyanın indiki blokada vəziyyətindən çıxmasına yardım göstərə bilər.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 \ (+994 77) 447-47-17
E-mail: kaspiqazeti@kaspi.az

# TƏKLİF ÇOX, SEÇİM ÇƏTİN





## 20 MİN MANATA ELEKTRİKLƏ İŞLƏYƏN AVTOMOBİL ALA BİLƏRİK?

“Avtomobili təyinatına görə almalıyıq. Şəhərdaxili gündəlik istifadə etmək istəyən alıcı əgər şarj etmək imkanı varsa, elektrik mühərrikli avtomobili rahatlıqla ala bilər”.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Son vaxtlar avtomobil bazarında təkliflərin strukturu dəyişib. Bazara elektriklə işləyən, hibrid avtomobillər daxil olub. Bununla yanaşı, Azərbaycan avtomobil bazarına Çin avtomobillərinin də axını sürətlənib. Bu durum avtomobil almaq istəyənləri çətin seçim qarşısında qoyur. Maraqlıdır, müasir təklifləri nəzərə alaraq, avtomobil seçərkən nələrə diqqət etmək lazımdır? Hansı avtomobil daha səmərəli ola bilər?

### AVTOMOBİLİ TƏYİNATINA GÖRƏ SEÇMİRİK

Azərbaycan Avtomobil Dilerləri Assosiasiyasının direktoru Eyyub Əliyev “Kaspi” qəzetinə açıqlamasında bildirir ki, Azərbaycanda avtomobil seçiminə fərqli aspektdən yanaşılır. Avtomobili əsasən, təyinatına görə deyil, xarici görünüşünə görə seçirik: “Məsələn, böyük maşın alırıq, onu daha çox şəhərdaxili sürürük. Sonra tıxacdan narazılıq edir, dayanacaqda yer tapa bilməməyə görə deyinirik. Yaxud “benzini çox içir” deyirik. Əslində isə avtomobili təyinatına görə almalıyıq. Şəhərdaxili gündəlik istifadə etmək istəyən alıcı əgər şarj etmək imkanı varsa, elektrik mühərrikli avtomobili rahatlıqla ala bilər. Yaxud, gün ərzində avtomobildən çox istifadə edən, amma hər dəfə şarj etməyə vaxtı olmayan sürücü əgər sərfəli avtomobil istəyirsə, hibrid əldə edə bilər”.

### ƏSAS İNTERYER, EKSTERYER DEYİL

Mütəxəssis vurğulayır ki, avtomobil seçərkən diqqət etməli olduğumuz əsas məqamlar interyer, eksteryer deyil, digər nüanslardır: “Əvvəlcə baxmalıyıq ki, bunun ehtiyat hissələri varmı, servis xidməti hansı səviyyədədir və ən əsası - avtomobili kimdən alırıq? Təəssüflər olsun ki, son zamanlar vətəndaşlar əksər hallarda fərdi şəxslərin gətirdiyi avtomobilləri almağa meyilləniblər. Qiymətə aldanırlar, nə zəmanət əldə edirlər, nə də servis xidməti. Sadəcə, avtomobili rəsmi salondan 3-4 min manat ucuz başa gəldiyi üçün alır, amma çox vaxt uduzurlar. Biz mütləq şəkildə avtomobilə olan yanaşmamızı dəyişməliyik. Məsələn, şəhərdə baxırıq ki, gənc xanımlar kifayət qədər böyük, 4-5 mühərrik həcmi olan avtomobillər sürürlər. Əgər avtomobildən ancaq şəhərdə istifadə edirsənsə, ailə tərkibi də geniş deyilsə, yaxud ailədə ikinci maşındırsa, 1,5-2 mühərrik həcmi kifayət edir. Ona görə də təyinatı üzrə istifadəsinə görə seçməliyik. “Biz nə istəyirik, bizə nə lazımdır” sualına cavab tapdıqdan sonra seçim etməliyik”. Bazarı zəbt edən Çin avtomobillərinə gəldikdə isə, E. Əliyev bildirir ki, hazırda Azərbaycanda 25-26 növdə rəsmi Çin avtomobil brendləri var: “Qeyri-rəsmilər də az deyil. Bu tendensiya ən azı yaxın 2-3 il də belə davam edəcək”.

Qiymətlərə gəldikdə isə, mütəxəssis vurğulayır ki, hazırda bazarda hər büdcəyə uyğun elektriklə işləyən və hibrid avtomobillər mövcuddur: “Elektriklə işləyən avtomobillər dəbə düşməyə başlayanda bizə daha çox yüksək qiymətli, bahalı avtomobillər gətirilirdi. Dövlətin bu sahədə tətbiq etdiyi güzəştlər, xüsusilə gömrük rüsumu və ƏDV-nin ləğvindən sonra qiymətlər də, bu avtomobillərə olan ümumi baxış da dəyişdi. Rəsmi dilerlər tərəfindən ölkəyə qiymətləri 20 min manatdan 100-200 min manata qədər dəyişən elektrik mühərrikli avtomobillər gətirilməyə başlanıldı. Hazırda alıcılar 20-21 min manatdan başlayan qiymətlərlə elektriklə işləyən avtomobilləri ala bilərlər. Sözsüz ki, büdcə qalxdıqca avtomobilin şarj tutumu, məsafə qət etməsi, komfort parametrləri də dəyişir”.

### BAZARDA UYĞUN QİYMƏTƏ YETƏRİNCƏ SEÇİM VAR

Hibridlərə gəlincə, yeni hibrid avtomobillərin qiymətləri elektriklə işləyənlərdən bir az bahadır: “Amma yeni avtomobil istədikdə, bu gün bazarda, yerli istehsalı da əlavə etsək, 22-23 min manatdan başlayan qiymətlərlə avtomobil almaq mümkündür. Əlbəttə ki, burada seqment fərqinə görə qiymətlər dəyişir. Bazarda təkliflər çoxdur, 23-33 min manat arası kifayət qədər avtomobil var. Hazırda bu qiymətlərə olan avtomobillərə tələbat çoxdur. Çünki taksilərlə bağlı yeni qaydalar, utilizasiya bu maşınlara tələbatı artırıb. Bu amilləri nəzərə alsaq, yetərincə seçimlər var”.




## AVROPA BRENDLƏRİNİN SATIŞI DEMƏK OLAR Kİ, DAYANIB

Nəqliyyat eksperti Yasin Mustafayev deyir ki, hazırda Çin avtomobilləri Avropa brendlərindən beş dəfə ucuzdur: “Müasir dövrdə bütün dünyada elektrikli və hibrid avtomobillərə üstünlük verilir. Çünki həm sərfəlidir, həm də qiyməti münasibdir, eyni zamanda qənaətcildir. Hazırda Çin istehsalı olan avtomobillərə daha çox tələbat var. Avropa brendlərinin elektrik və hibrid avtomobilləri həddindən çox bahadır. Digər daxili yanma mühərrikli avtomobillərin satışı demək olar ki, tamamilə dayanıb”.



Eyyub Əliyev

***Mütəxəssislər deyir ki, avtomobil seçərkən aşağıdakı amillər nəzərə alınmalıdır:***

● Əgər siz şəhər içində və ya qısa məsafələr üçün avtomobil axtarırsınızsa, elektriklə işləyən və ya hibrid avtomobillər sərfəli ola bilər. Uzaq məsafələr üçün isə hibridlər və ənənəvi yanacaqla işləyən avtomobillər daha praktikdir.

● Texniki xidmət və ehtiyat hissələrinə gəldikdə isə, ənənəvi və Çin avtomobilləri üçün texniki xidmət məntəqələri daha genişdir.




Elektrikli avtomobillər üçün isə xüsusi şarj məntəqələri və təmir mərkəzləri lazım ola bilər. Çin avtomobilləri və hibrid modellər ənənəvi avtomobillərdən daha qənaətcildir, lakin ilkin olaraq daha bahalı ola bilər. Elektrikli avtomobillər isə uzunmüddətli investisiya baxımından qənaətli ola bilər, amma ilkin qiymət yüksəkdir. Əgər siz ekoloji təmizliyə və yanacaq qənaətinə üstünlük verirsinizsə, hibrid və ya elektriklə işləyən avtomobil yaxşı seçimdir.



Yasin Mustafayev

ŞENGEN VİZASI ÜÇÜN PULSUZ GÖRÜŞ VAXTI ALMAQ MÜMKÜNSÜZ OLUB

# TURİZM ŞİRKƏTLƏRİNİN QANUNSUZ QAZANC YERİ

Şengen vizası almaq məqsədilə səfirliklərdə görüş götürmək üçün yerlər açıq bazarla satılır. Turizm şirkətlərinə müraciət etdikdə yalnız VİP yerlərin mövcud olduğunu və bunun üçün qiymətin 200-300 AZN aralığında dəyişdiyini bildirirlər.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Şengen ölkələrindən hər hansı birinə səyahət etməyə icazə verən sənəd vətəndaşlar üçün əlçatmaza çevrilib. Səbəb? Əgər vizaya gedən yolda bir tərəfdən süründürməçiliyi yaradan xarici ölkələrin səfirlikləri və konsulluqlardırsa, digər tərəfdən, yerli turizm və vasitəçi şirkətlərdir.

Hazırda problemlə bağlı kütləvi narazılıqlar sosial platformalara ayaq açıb. Problemin əsas səbəbi isə xaricə səfər etmək istəyən insanların viza almaq üçün sərbəst şəkildə səfirliklərin saytından görüş yeri götürə bilməməsidir. Yerli turizm şirkətlərinə müraciət etdikdə yalnız VİP yerlərin mövcud olduğunu və bunun üçün qiymətin 200-300 AZN aralığında dəyişdiyini bildirirlər. Əgər təcili uçuşun varsa, qiymətin daha da qalxma ehtimalı var. Bu məbləğə viza dəstəyi üçün ödənilən 70-100 AZN daxil deyil. Faktı yoxlamaq üçün istənilən turizm şirkətinə telefon açmaq kifayətdir.

### RÜŞVƏTSİZ GÖRÜŞ GÖTÜRMƏYİN YOLLARI

Sosial platformalarda, səyahət qruplarında problemin yaranmasında yerli turizm şirkətləri ilə bərabər viza müraciətlərinə dəstək xidməti göstərən vasitəçi şirkətlərin də işbirliyinin olduğu qeyd edilir.

Yazılan statuslar və rəylər də problemin dərinliyini təsdiqləyir. "Xahiş edirəm, viza üçün rüşvətsiz görüş götürməyin yolları haqqında məlumat verəsiniz"; "Səfirliklərə görüş yeri üçün pulsuz yaxın düşmək mümkün deyil" kimi narazılıqlar baş alıb gedir. "Siz oranı da ələ keçirdiniz! Afərin sizlərə. Qabaqlar çətin də olsa səfirliklə görüş vaxtı tapa bilirdik, indi isə bütün vaxtları zəbt etmisiniz və buranı da bazara çevirmisiniz. Yəqin ki, bu işlərə də bir əncam tapılar. Ancaq başa düşün ki, belə pul qazanmaq əxlaqsızlıqdır", - bu rəyi isə turizm şirkətlərindən birinin paylaşımına biologiya elmləri doktoru Elimxan Cəfərov yazıb.

Səyahət bloqeri Elşən İsmayılov özünün facebook profilində Almaniyanın ölkəmizdəki səfirliyinə narazılığını ünvanlayıb: "Hazırda may ayından etibarən yerlər (appointment) satılır. Səfirliyə dəfələrlə zəng edərək şikayətlər edilsə də, əhəmiyyət verilmir. Şəxsən mən 300-400 manata yer almağa məcbur olan onlarla adam tanıyıram. Ya konsul, ya da "Vizametrik" şirkəti sizə xəyanət edir".




Mövzu ilə bağlı sual ünvanladığımız səfirliklərin heç birindən cavab ala bilmədik.

### DÖVLƏT TURİZM AGENTLİYİ: "MƏLUMATLIYIQ"

Dövlət Turizm Agentliyindən narahatlıq yaradan sualımıza belə cavab verildi: "Qeyd olunan məsələ ilə bağlı məlumatlıyıq. Xarici ölkə səfirləri ilə ikitərəfli görüşlərdə viza prosedurları ilə bağlı vəziyyətin optimallaşdırılması üçün sözügedən məsələ mütəmadi olaraq qaldırılır. Eyni zamanda, məsələ müvafiq dövlət orqanlarının diqqətinə çatdırılır. Həmçinin turizm sənayesi üzrə ictimai təşkilatlarla da həll yolları istiqamətində mütəmadi olaraq müzakirələr aparılır. Hesab edirik ki, məsələnin öz həllini tapması ikitərəfli turizm əlaqələrinin inkişafı üçün vacib məqamdır".




### "RÜSUM 30 AVRODAN ARTIQ OLMAMALIDIR"

Sorğumuza Daxili İşlər Nazirliyindən "DİN-ə aid sual deyil" cavabı gəldi. Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə ünvanladığımız sual da bir ay keçməsinə baxmayaraq cavabsız qalıb.

Xarici İşlər Nazirliyinin Konsulluq İdarəsinin rəisi Emil Səfərov isə sualımızı cavablandıraraq müraciətimizdə qeyd etdiyimiz məqamların "Azərbaycan Respublikası və Avropa İttifaqı arasında vizaların rəsmiləşdirilməsinin sadələşdirilməsi haqqında" Saziş əsasında təsis edilmiş Avropa İttifaqı-Azərbaycan arasında Birgə Viza Sadələşdirilməsi Komitəsi zamanı, o cümlədən Avropa İttifaqına üzv dövlətlərlə keçirilən ikitərəfli görüşlərdə dəfələrlə tərəflərindən gündəmə gətirildiyini bildirir: "2013-cü il 29 noyabr tarixində imzalanmış Sazişin 6-cı maddəsinin 3-cü bəndinə əsasən üzv dövlətlər vizanın rəsmiləşdirilməsi üçün kənar xidmət təchizatçısı ilə əməkdaşlıq etdiyi halda, kənar xidmət təchizatçısı xidmətlər üçün rüsum ala bilər. Bu rüsum öz işlərinin icrası zamanı üzləşdiyi xərclərə mütənasib olmalı və 30 avrodan artıq olmamalıdır. Həmçinin sazişə tərəf olan ölkələr ərizəçilərə öz ərizələrini birbaşa onların konsulluqlarına təqdim etmək imkanını saxlamalıdırlar. Sazişin 7-ci maddəsinin 1-ci bəndinə əsasən, sazişə tərəf olan ölkələrin diplomatik missiyaları və konsulluq bölmələri vizanın rəsmiləşdirilməsi üçün ərizənin və tələb olunan sənədlərin qəbul tarixindən 10 təqvim günü ərzində vizanın rəsmiləşdirilməsi müraciəti ilə əlaqədar qərar qəbul etməlidir. Həmin maddənin 3-cü bəndinə əsasən, ərizəçilərdən ərizənin təqdim edilməsi üçün görüş təyin edilməsi tələb olunduğu təqdirdə görüş bir qayda olaraq görüş üçün edilmiş müraciət tarixindən etibarən 2 həftə ərzində baş tutmalıdır". İdarə rəisi qeyd edib ki, müraciətimizdə qeyd olunan məsələlərlə əlaqədar XİN tərəfindən Avropa İttifaqına və üzv dövlətlərinə müraciət ünvanlanıb.

## İNSANLAR ŞENGEN ZONASINA SƏYAHƏT ETMƏKDƏN ÇƏKİNİRLƏR

Turizm üzrə ekspert Rəhman Quliyevin fikrincə, viza rəsmiləşdirməsində çətinliklər yarandığı üçün insanlarımız Şengen zonasına səyahət etməkdən çəkinir, digər ölkələrə maraq göstərirlər. Ekspert 2010-2015-ci illərdə diplomatik korpuslarda vizaların rəsmilşdirilməsində canlı növbə olduğunu xatırlayır: "Onda insanlar anketlərini onlayn deyil, fərdi şəkildə doldurur, tələb olunan sənədləri toplayaraq konsulluğa müraciət edirdilər. Orada onları birbaşa konsul və ya köməkçisi qarşılayırdı. Viza verilməsi birbaşa konsulun səlahiyyətində idi. Amma indi vətəndaşlar böyük çətinliklərlə üzləşirlər. Çünki onlayn görüş yeri götürülməsi çox ciddi problem yaradır".



# KARTOF KƏSKİN BAHALAŞACAQ?

Payızlıq kartof yığımına start verilib. İnsanlar yeni məhsulun yığımı ilə qiymətin aşağı enəcəyini düşünürlər. Amma ekspertlər bildirirlər ki, əksinə, kartofun qiyməti daha da arta bilər.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Cəlilabad rayonunda payızlıq kartofun yığımına start verilib. Ayrı-ayrı kəndlərdə bu il 900 hektar sahədə kartof əkilib. Bu rəqəm ötən il 260 hektar olub. Bəs görəsən, payızlıq kartofun yığımının başlaması bazarda kartofu bir az da olsa ucuzlaşdıra bilərmi?

### QİYMƏTLƏR İLDƏN ASILI OLARAQ DƏYİŞİR

İqtisadçı Rauf Qarayevin sözlərinə görə, son illər ölkədə kartof istehsalında vəziyyət sabit deyil: "Kartof yığımının ötənilki statistikasına baxanda öndə gedən rayon Qazaxdır. Ən çox kartof əkilən iqtisadi rayon Qazax-Tovuzdur. 2023-cü ilin statistik məhsul yığımını müqayisə etsək Ağstafada 299,5, Gədəbəydə 129, Qazaxda 350, Şəmkirdə 286,2, Tovuzda 303,6 sentner kartof yığılıb. Cəlilabad rayonunda 311,8 sentner kartof yığılıb. İstehsala gəldikdə, 2023-cü ildəki kartof istehsalının statistik rəqəmləri göstərir ki, ölkə 2020-ci ilin vəziyyətinə qayıdıb. Həmin il bir milyon 37 min 636,8 ton kartof yığılmışdırsa, 2023-cü ildə bir milyon 10 min 517,4 ton kartof yığılıb. 2021-ci ildə 1 milyon 61 min 957,7 ton, 2022-ci ildə 1 milyon 74 min 261,3 ton kartof istehsal olunub. Şəmkirdə ilbəil kartof yığımı artıb, nəticədə 188 min 615,7 tona yaxın kartof yığımı olub. Cəlilabad rayonunda 2022-ci ildə 190 min 400 ton kartof istehsalı olmuşdusa, 2023-cü ildə bu rəqəm 186 min 60 tona enib. Göründüyü kimi, istehsal və kartof yığımının statistikası stabil deyil. Ona görə də, qiymətlər ildən asılı olaraq dəyişə bilər".





Rauf Qarayev

## HƏM DƏ İXRAC EDİRİK

R.Qarayevin fikrincə, qiymətlər maksimum 10 qəpik azala bilər: "2024-cü il hələ başa çatmayıb. Amma bazarda qiymətlərə nəzər yetirsək, rayonlarda bir kiloqram iri və yuyulmuş kartofun qiyməti 80 qəpik idi. Bolluq olsa, bu qiymət maksimum 10-15 qəpik enə bilər. Məsələnin digər tərəfi xaricdən gələn kartofun daha ucuz olmasıdır. Bu, yerli bazarda olan kartofları sıxışdıra bilər. Nəzərə almaq lazımdır ki, yerli kartof həm də xarici bazarlara çıxarılır. 2024-cü ilin yanvar-iyul ayında Azərbaycandan 20 milyon 471 min dollar dəyərində 48 min 234 ton kartof ixrac olunub. Ötən dövrlərlə hazırkı dövrü müqayisə etdikdə görə bilərik ki, qiymətlərdə cüzi də olsa, enmələr mövcuddur. Amma bazarda olan qiymətlərlə müqayisə etdikdə elə də böyük fərq yoxdur. Ötən ilin oktyabr ayı ərzində kartofun qiyməti 70 qəpiklə bir manat arasında dəyişirdisə, hazırda da eyni qiymətdir. Amma rayonlarda təklif edilən qiymətlərdə çox cüzi enmələr var. Bu, qısamüddətli də ola bilər".

İqtisadçının sözlərinə görə, qiymətlərə təsir edən ən əsas məqamlardan biri də vətəndaşla kəndli arasında vasitəçilərin olmasıdır: "Yarmarkaların keçirilməsi qiymətlərə təsir edə bilər. Kəndlinin birbaşa bazara çıxışı təmin olunmalıdır. Çünki qiymətləri daha çox vasitəçilər idarə edir. Kəndli gətirdiyi məhsulu tez şəkildə bir nöqtəyə təhvil verib getməyi üstün tutur. Bakıda gecələmək kəndlinin büdcəsinə uyğun deyil. Satıcılar da əksər hallarda bildirirlər ki, məhsullar bir nöqtədən gətirilir. Təbii ki, bu zaman daşınma xərci də məhsulun üzərinə əlavə edilməlidir. Belə olan halda regionlar və paytaxtda məhsul qiyməti xeyli fərqlənir. Rayonda bir manata qədər olan məhsulun qiyməti Bakıda 2-3 manat arası dəyişir. Həmçinin məhsulun satış ərazisi də önəmlidir. İcarəyə götürülən satış üçün yerin qiyməti də məhsula təsirsiz ötüşmür".



## RUSİYA BAZARLARINDA KARTOF XEYLİ BAHALAŞIB


Eldar Hüseynov

Kənd təsərrüfatı sahəsi üzrə ekspert Eldar Hüseynovun fikrincə, Rusiyada baş verənlərin təsiri nəticəsində ucuzlaşma haqqında danışa bilmirik: "Göstərilən statistikada qeyd olunan rəqəmlərdəki artım bazarda olan vəziyyətə təsir göstərə bilməyəcək. Çünki son günlər Rusiya bazarlarında kartofun qiyməti xeyli bahalaşıb. Bu səbəbdən, Azərbaycan və digər ölkələrdən Rusiyaya külli miqdarda kartof ixrac olunur. Rusiyada dolların qiymətində son günlər baş verən yüksəlmə də mütləq ki, Azərbaycanın daxili bazarından yan keçməyəcək".

Ekspertin fikrincə, ölkəmizin kartofa olan tələbatı çox, təminatı isə xeyli azdır: "Cəlilabad rayonundakı kartof sahələri xeyli azdır. Toplanacaq məhsul ölkəmizin kartof tələbatını ödəmək üçün kifayət etməz. Cəmi 2-3 ay tələbatı ödəmək mümkün olar. Daxili bazara təsir gücü maksimum 10 gün çəkər. Amma qiymətlərdə uzunmüddətli enmələrin olacağını söyləyə bilmirik. Hətta yaxın gələcəkdə - dekabr-fevral ayları arasında kartofun qiyməti kəskin şəkildə arta bilər. Yəni bu məhsulda hazırki il üçün ucuzlaşma qeyri-mümkündür. Bazarda tərəvəzlərdə xeyli qiymət artımı müşahidə edilir".

Üç əsrin qəzeti Kaspi
COP29 Baku Azerbaijan
Climate change conference



# HƏYATI FACİƏLİ SONLUQLA BİTƏN AKTYOR





**“Uşaqlığın son gecəsi”nin Rüstəmi - Səyavuş Şəfiyev Fransada qastrol səfərində yıxılır və bərk əzilir. Bu hadisədən sonra danışa da bilmir. Onu Moskvaya gətirirlər. Az sonra infarkt da keçirir. Bir müddət keçdikdən sonra elə Moskvada dünyasını dəyişir.**



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

“Əhməd haradadır?”, “Uşaqlığın son gecəsi”, “Ən vacib müsahibə”, “O qızı tapın”, “Nəsimi” kimi Azərbaycan kinosunun məşhur filmlərində onun da əməyi var. Səyavuş Şəfiyev yaratdığı maraqlı obrazlarla tamaşaçıların yaddaşında qalmağı bacarıb. Ömrü qısa, rolları az da olsa, adını kinomuzun tarixinə yazdıra bilib.

Əməkdar artist, rejissor, sirk ustası Səyavuş Şəfiyevin 24 noyabr - xatirə günü ərəfəsində həyatı haqqında bilmədiklərimizi sənət dostları danışdı.

**BUNU ÇOXU BİLMİR...**

“Səyavuş kino çəkilişləri üçün Bakıya gəlib-gedirdi. Ona görə onunla ünsiyyət qurmaq çətin idi. Kinomuzda bir sıra rollar yaratdı. Təəssüf ki, onun həyatı faciə ili bitdi”, - deyə tanınmış kinoşünas Aydın Kazımzadə mərhum aktyorun bacısından eşitdiklərini danışır: “Səyavuş Şəfiyev Bakıda bir neçə filmə çəkildikdən sonra köçüb Moskvaya getdi. Onun rəhbərlik etdiyi sirk truppası Fransaya qastrola gedib. Səyavuş tamaşa zamanı akrobatik nümunələr göstərib. Aşağıda qoruyucu olmadığından yıxılaraq bərk əzilib. Səyavuş bu hadisədən sonra danışa bilmir, lal olur. Onu Moskvaya gətirirlər. Moskvada da infarkt keçirir. Elə bir cüssəli, hündürboylu və sağlam adam bir hadisə nəticəsində şikəst olur və az sonra dünyasını dəyişir...”

**“NƏ VAXTA QƏDƏR QONAQ EVİNDƏ YAŞAYACAĞAM?”**

Səyavuş Şəfiyevin həyat və yaradıcılığını daha yaxşı bilən Xalq artisti Ənvər Həsənov danışır: “Səyavuş hələ məktəb illərindən idmanda uğurlar qazanmışdı. Boks üzrə müxtəlif yarışların qalibi idi. Moskvada Ümumittifaq Sirk Məktəbini bitirib, akrobatika üzrə dərəcə almışdı. Məktəbi qurtardıqdan sonra “Soyuzsirk”də çalışırdı. Moskva sirkində tanınmış artistlərlə işləyərək tezliklə öz işinin peşəkarına çevrilmişdi. Onu Rusiyanın sirk artistləri arasında qəbul edirdilər”.

1972-ci ildə S.Şəfiyev Bakıya, şəhərdə yenicə açılmış sirkə bədii rəhbər göndərilir. Bakıda quruluş verdiyi sirk proqramları o zaman üçün böyük populyarlıq qazanır. O, sirk rejissoru kimi də özünü sınayır. S.Şəfiyev Bakıda kino rejissorlarının diqqətini cəlb edir. Adil İsgəndərov onu “Əhməd haradadır?” filminə dəvət edir. Film ekranlara çıxandan sonra rejissor Adil İsgəndərov ciddi tənqidlərlə üzləşir. Film “Burjua-meşşan elementləri ilə zəngin” ekran əsəri kimi xarakterizə edilir. Filmin tənqidindən xəbər tutan Səyavuş “nahaq çəkildim” deyə peşmançılıq keçirir. Ancaq illər ötdükdən sonra film tamaşaçı tərəfindən qəbul edilir və Azərbaycanın baxımlı filmlərindən birinə çevrilir. S.Şəfiyev “Taleyimdən razıyam. Nə yaxşı ki, Adil müəllim məni bu rola çəkdi”, - deyir.

Bundan sonra S.Şəfiyev Maqsud İbrahimbəyovun ssenarisi üzrə çəkilən “Uşaqlığın son gecəsi” filmində Rüstəm obrazını yaradır. Film Gürcüstanda keçirilən festivalda mükafata layiq görülür. “Mənim onda 17-18 yaşım vardı”, - deyə Ə.Həsənov xatırlayır: “Adil müəllim dedi ki, siz bir evdə yaşayacaqsınız. Gərək sizin bir-birinizə qarşı səmimiyyətinizi tamaşaçılara çatdıraq. Biz bütün günü bir yerdə olurduq. Axşamlar da sirkdə onun tamaşalarına gedirdim. Kinoya çəkildiyim müddətdə onunla, ailəsi ilə çox yaxın oldum. Həyat yoldaşı rus idi. Bir qızları vardı. Mən Səyavuşun insanlığının, səmimiyyətinin şahidi oldum. Bu münasibət mənə çox şey öyrətdi. Xoşbəxtəm ki, onunla bir yerdə işləmişəm. “Uşaqlığın son gecəsi” filmi çox məşhurlaşdı. O filmi demək olar ki, 40 dan çox ölkə alıb. Səyavuş o filmdən sonra “Ən vacib müsahibə” filmində jurnalist Altay obrazını yaratdı”. Ə.Həsənov danışır ki, S.Şəfiyev sirkin bədii rəhbəri işləsə də, Bakıda mənzili olmayıb, qonaq evində qalırmış: “Bakıya gələndən sonra sirkin yaxınlığındakı “Sirk” qonaq evində yaşayırdı. O vaxt tanınmış incəsənət adamlarını mənzillə təmin edirdilər. Səyavuş 5 il qonaq evində qaldı. Sonra “Nə vaxta qədər qonaq evində yaşayacağam? Dostum-tanışım var. Evimə qonaq dəvət edə bilmirəm”, - deyə inciyib Moskvaya köçdü. O, Moskvada məşhur “Səhnədə sirk” Birliyində quruluşçu rejissor kimi işləməyə başladı. Çox gözəl insan idi. Mən hərbi xidmətdən sonra 5-6 il Moskvada yaşadım. Orada tez-tez görüşürdük. Yaxşı ki, kino həyatımda belə bir insanla tanış olmuşam”.



Ənvər Həsənov

Aydın Kazımzadə

Xalidə Quliyeva

Əbdül Mahmudov

## “QƏFİL EŞİTDİK Kİ, RƏHMƏTƏ GEDİB...”

“Bizim sirkdə işləməyə başlayandan sonra Ədil İsgəndərovun xoşuna gəlmişdi və onu “Əhməd haradadır?” filminə dəvət etmişdi” - deyə kinorejissor Əbdül Mahmudov xatırlayır: “Mən onunla yalnız bir filmdə, “Əhməd haradadır” filmində epizodda çəkildim. Amma kinostudiyanın dəhlizlərində tez-tez rastlaşır və görüşürdük. Mən onu “Doğma sahillərdə” filmində polkovnik roluna çəkmək istəyirdim, gözaltı etmişdim. O filmdə vuruş səhnələri vardı. O da idmançı idi. Həmin rola uyğun olduğu üçün onu gözaltı etmişdim. Amma onu axtardım, dedilər ki, rəhmətə gedib. Siyavuş Azərbaycanın ilk sirk ustalarından biri idi. Dağlarda, qayalarda gəzirdi. Çox səmimi və vətənpərvər insan idi. Azərbaycanda bir neçə filmə çəkildi və köçüb getdi, Rusiyada işlədi. Qəfil eşitdik ki, cavan yaşda rəhmətə gedib. Doğrudur, az rollar ifa etdi, ancaq maraqlı obrazlara öz möhürünü elə vurdu ki, kino tarixinə adını əbədi olaraq həkk etməyi bacardı”.

**“NİYƏ AĞLAYIRSAN, AĞLAMA...”**

Xalq artisti Xalidə Quliyeva Səyavuş Şəfiyevlə “Nəsimi” filminin çəkiliş meydanında tanış olub: “Onda mənim 20 yaşım vardı. Dünyanı dərk edən vaxtım deyildi, baxırdım, öyrənirdim. Filmin kütləvi atçapma səhnələri Qobustanda çəkilirdi. Mən də o kütləvi səhnələrdə at çapmalı idim. İlk dəfə idi ata minirdim, bacarmadım. Çox pis odum və gəlib avtobusda oturub ağladım. Birdən Səyavuş avtobusa gəldi. Mən üzümü ondan gizlətdim. “Niyə ağlayırsan, ağlama. Onsuz kütləvi səhnələrdə dublyorlar çəkilirlər. Sənin böyük işlərin qabaqdadır”, - deyə mənə təsəlli verdi. Səyavuş çox sakit, mədəni, başqasının dərdinə yanan adam idi. Çox intizamlı idi. Mən çəkilişlər zamanı onu belə tanıdım...”

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
23 NOYABR ŞƏNBƏ 2024




# ZİRVƏDƏN ZİRZƏMİYƏ GEDƏNLƏR

Futbol klublarının uğurları yalnız meydanda deyil, daha çox idarəetmə ofislərində qazanılır. Uğursuz idarəetmə, maliyyə problemləri və qısamüddətli strategiyalar klub tarixlərini mənfi istiqamətdə dəyişə bilər.

Futbol dünyasında tarix yazmış klubların arasında zamanla müxtəlif səbəblərdən çətin vəziyyətə düşənlər az olmayıb. Bu hekayələr yalnız klub azarkeşləri üçün deyil, bütün futbolsevərlər üçün maraqlıdır, eyni zamanda digər klublar üçün dərslik mahiyyətindədir. Son dövrlərdə Fransanın məşhur "Lion" klubunun düşdüyü vəziyyət bunu bir daha gündəmə gətirib. Bu yazıda "Lion"la yanaşı, "Sevilya", "Valensiya", "Sent-Etyen", "Bordo", "Deportivo", "Parma" kimi komandaların çöküş dövrlərinə nəzər salacağıq.

### "LİON" BU VƏZİYYƏTƏ NECƏ DÜŞDÜ?

Fransanın ən güclü klublarından biri sayılan "Lion" 2000-ci illərin əvvəllərində ardıcıl yeddi dəfə ölkə çempionu olmuşdu. 1987-ci ildə Jan-Mişel Olanın klubun sahibi olması ilə parlaq dövrlər başlamışdı. "Lion" ölkə daxilində qazandığı çempionluqlarla yanaşı, qitə miqyasında da böyük komandalarla rəqabət aparmağı bacarırdı. Eyni zamanda, klubun akademiyası Fransada əsas futbolçu fabriki idi. Lakin 2008-ci ildə əldə edilən sonuncu Fransa çempionluğundan sonra çöküş başlandı. Düzdür, sonradan klub toparlanmağı və 2019/20 mövsümündə Çempionlar Liqasında yarımfinal oynamağı da bacardı. Ancaq maliyyənin düzgün idarə edilməməsi "Lion"un borc bataqlığına sürüklənməsinə səbəb oldu. 2022-ci ildə Ola klubu amerikalı biznesmen Con Tekstora satanda borc 300 milyon avrodan artıq idi. Sonrakı iki il ərzində bu rəqəm 500 milyon avronu keçib. Mövsümün sonuna qədər vəziyyəti düzəltmək, borcları azaltmaq mümkün olmasa, "Lion" aşağı liqaya salınacaq.

## Fransanın zəifləmiş imperatorları

Fransada "Lion"dan daha acınacaqlı vəziyyətdə olan klublar da var. Bir zamanlar ölkə futbolunun ən güclülərindən olan "Sent-Etyen" və "Bordo" bu gün mövcudluq mübarizəsindədir.

"Sent-Etyen" uzun illər 10 çempionluqla Fransanın ən titullu komandası idi. Yalnız PSJ son illərdə qazandığı uğurlarla onu geridə qoymağı bacarıb. "Sent-Etyen" son 10 ildə daha çox maliyyə problemləri ilə diqqət çəkir. Bir neçə dəfə əl dəyişdirən klub, nəhayət, 2021/22 mövsümündə aşağı liqaya düşdü. Lakin "Sent-Etyen" özündə güc taparaq iki mövsüm sonra yenidən Liqa 1-ə qayıdıb. Hazırda komanda elitada yerini qorumağa çalışır.

"Bordo"nun vəziyyəti isə daha ağırdır. Altıqat Fransa çempionu indi səviyyəcə dördüncü liqada yarışmaq məcburiyyətindədir. Səbəb eynidir: pis idarəçilik. Koronavirus pandemiyasından ən çox əziyyət çəkən klublardan olan və gəlirlərinin kəskin azalması ilə borc bataqlığına düşən klub hazırda peşəkar statusunu da itirib. Komanda həvəskar statuslu dördüncü liqada oynayır.

### XATİRƏLƏRDƏ YAŞAYAN "DEPORTİVO"

Nostalji həvəskarları mütləq əsrin əvvəllərindəki "Deportivo"nu xatırlayırlar. 2000-ci ildə İspaniya çempionu olan La Korunya təmsilçisi 2004-cü ildə də Çempionlar Liqasında yarımfinal oynamağı bacarmışdı. Lakin uğurlu nəticələr çox davam etmədi. Adı hətta oyun nəticələrinin manipulyasiyasında hallanan "Deportivo" 2011-ci ildə aşağı liqaya düşdü. Son illərdə klub hətta üçüncü liqaya qədər enmişdi. Bu mövsümdən komanda ikinci liqada oynayır və hədəf La Liqaya qayıtmaqdır. Maraqlıdır ki, hətta üçüncü liqada çıxış edərkən "Deportivo"nun oyunlarına 30 minə yaxın azarkeş gəlib.

### REKORDÇUNUN ACINACAQLI HALI

Avropa Liqasından bəhs ediləndə əksər azarkeşlərin ağlına İspaniyanın "Sevilya" klubu gəlir. Əndəlusiya təmsilçisi daha əvvəl UEFA Kuboku adlanan bu turniri ən çox qazanan komandadır. Lakin hazırda komanda əvvəlki əzəmətindən xeyli uzaqdır. "Sevilya"da "Lion"dan fərqli olaraq idarəçilikdəki nöqsanlar ön plandadır. Səhv idman direktoru və baş məşqçi seçimləri, uğursuz transferlər komandanı böhrana sürükləyir. Klub rekordları ilə dünya futbolunda mövqeyini möhkəmləndirməyi bacarsa da, xüsusən La Liqada işləri yolunda getmir. Ötən mövsüm 14-cü pilləni tutan komanda bu mövsüm 13-cü sıradadır. Bu gedişlə vəziyyətin düzəlməsi çətin görünür.


Con Tekstor



Jan-Mişel Ola

### BORC GİRDABINA DÜŞƏN "YARASALAR"

Əsrin əvvəllərində İspaniyada hegemonluq edən klublardan biri də "Valensiya" idi. Komanda iki dəfə ölkə çempionu olmuş, hətta Çempionlar Liqasında final oynamışdı. Tarixi eniş və yoxuşlarla zəngin olan "yarasalar" yenidən çöküşdədirlər. Özü də bu proses 15 ildən artıqdır davam edir. Maliyyə sabitliyinin olmaması, həyata keçirilən uğursuz layihələr klubu böhrana sürükləyib. 2009-cu ildə başlanan yeni stadionun inşası da məhz bu səbəbdən yarımçıq qalıb. 2014-cü ildə klubu satın alan sinqapurlu sahibləri də vəziyyəti düzəldə bilməyiblər. "Valensiya" hazırda La Liqanın turnir cədvəlində sonuncu pillədədir. Klubun bu bataqlıqdan necə çıxacağı, ümumiyyətlə toparlana bilib-bilməyəcəyi sual doğurur. İndiki məqamda bu, çox çətin missiya kimi görünür.

## İtaliyanın unudulmayan ulduzu

"Kalço" həvəskarları isə ötən əsrin 90-cı illərinin sonunda və 2000-ci illərin əvvəllərindəki "Parma"nı köks ötürərək xatırlayırlar. Bir vaxtlar böyük ulduzların cəmləşdiyi klub indi yenidən qayıtdığı A Seriyasında möhkəmlənməyə çalışır. 2004-cü ildən başlanan eniş 2015-ci ildə klubun müflis elan olunması ilə nəticələndi. Hətta "Parma"nın sahibləri borcların ödənilməsi üçün klubun qazandığı kubokların bir çoxunu hərraclarda satmalı olmuşdular.

Yarımhəvəskar D Seriyasında çıxış etməyə başlayan "Parma" yenidən toparlana və elitaya qayıda bilib. Lakin keçmiş şöhrətindən çox uzaqdır.

Bu çöküş hekayələri göstərir ki, futbol klublarının uğurları yalnız meydanda deyil, daha çox idarəetmə ofislərində qazanılır. Uğursuz idarəetmə, maliyyə problemləri və qısamüddətli strategiyalar klub tarixlərini mənfi istiqamətdə dəyişə bilər. Bu klubların keçmiş şöhrətlərini bərpa edib-etməyəcəyi isə zamanla bəlli olacaq.